# MÜASİR MÜƏLLİFLƏRİN YARADICILIĞINDA "MƏQASİD" FİKRİNİN İNKİŞAFI

Taha Cabir əl-Ülvani ilə söhbət

Müsahibəni aparan:
Zeynəb əl-Ülvani

# Müasir müəlliflərin yaradıcılığında "məqasid" fikrinin inkişafı

Taha Cabir əl-Ülvani ilə söhbət
Müsahibəni aparan: Zeynəb əl-Ülvani

Beynəlxalq İslam Fikri İnstitutu

"İdrak" İctimai Birliyi

**Müasir müəlliflərin yaradıcılığında**
**"məqasid" fikrinin inkişafı (Azeri)**
*Taha Cabir əl-Ülvani ilə söhbət*
*Müsahibəni aparan: Zeynəb əl-Ülvani*

© "İdrak" İctimai Birliyi
və Beynəlxalq İslam Fikri İnstitutu
1444 (hicri) / 2023 (miladi)
*Paperback* ISBN: 978-9952-8445-9-7

**Taṭawwur al-manhaj al-maqāṣidi**
**`inda al-mu`āṣirīn (Azeri)**
*Ṭāha Jābir al-`Alwāni*
*Zaynab al-`Alwāni*

© The International Institute of Islamic Thought (IIIT)
1432AH / 2011CE
*Paperback* ISBN: 978-1-56564-474-8
IIIT
P.O. Box 669
Herndon, VA 20172, USA
www.iiit.org

Tərcüməçi, redaktor və şərhlərin müəllifi:
fəlsəfə üzrə fəlsəfə doktoru
Elvüsal Məmmədov
Bədii və texniki tərtibat: Həsən Həsənov
"İdrak" İctimai Birliyi
Azərbaycan, Bakı ş., Mirəli Seyidov 3138,
korpus D, 1-ci mərtəbə
idrak.org.az

Kitab Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin
icazəsi ilə nəşr olunur (DK-1589/Q, 15 Sentyabr 2022-ci il)

Bütün hüquqlar qorunur.

# Ön söz

Həm yaradıcı təfəkkürə söykənən koqnitiv paradiqma əsasında, həm də Quran metodologiyası baxımından tənqid və təhlil olunmalı gerçəklik və anlayışlar vardır.

Əsrlər boyu İslam fikri bir neçə dəfə yenidən nəzərdən keçirilmişdir. Hər dəfəsində təhlil meyarları, qarşıya qoyulmuş məqsədlər və gəlinən nəticələr fərqli olmuşdur.

XX əsrin başlanğıcında İslam fikrini durğunluqdan xilas etməyə çağıran, bütün potensialını yenilənmə əvəzinə təqlid doğurmuş səbəb və amillərin müəyyənləşdirilməsinə sərf edən, təhrif və yanlışlıqları aradan qaldırmağa cəhd göstərən islahatçılıq hərəkatı mövcud idi.

Xüsusən İmam Şatibinin[1] "əl-Müvafəqat fi üsul əş-şəriət" kitabı professor Məhəmməd Abdullah Dərraz (və ya: Diraz)[2] tərəfindən tədqiq olunaraq çap edildikdən sonra alimlər fiqhin əsaslarının[3] yenilənməsi haqqında müzakirələr aparmağa başladılar.

Məhəmməd Tahir ibn Aşurun[4] "insanın əməlləri"[5] ilə əlaqəli müxtəlif hökmləri "yüngülləşdirmək" cəhdi qeyri-ənənəvi ictihad təcrübəsi sayıla bilər. Belə ictihad təcrübəsi dövrə uyğun

---

[1] **Əbu İshaq əş-Şatibi (1320-1388):** Maliki alimlərindəndir. Üsul alimi, imam, müfəssir, fəqih və mühəddisdir. Əsərləri: "əl-Müvafəqat fi Üsul əş-Şəriət", "əl-Etisam", "əl-Məcalis" – ***tərcüməçinin qeydi.***

[2] **Məhəmməd Abdullah Dərraz (1894 – 1958):** Misirli alimdir. Əzhəri-Şərifi bitirmiş, Sarabonna universitetində "La marale du Koran" (Quranda əxlaq sistemi: nəzəri Quran əxlaqının müqayisəli tədqiqi) adlı doktorluq dissertasiyasını müdafiə etmişdir. Digər əsərləri: "İslama baxış", "Böyük xəbər", "Qurani-Kərimə giriş" və s. – ***tərcüməçinin qeydi.***

[3] Fiqh üsulşünaslığı nəzərdə tutulur – ***tərcüməçinin qeydi.***

[4] **Məhəmməd Tahir ibn Aşur (1879-1973)**: Son dövrün böyük maliki alimlərindəndir. Tunis Maliki müftilərinin böyüyü olmuş, Zeytuniyyə Universitetinin rektoru işləmişdir. Qahirə və Dəməşq Ərəb akademiyalarının üzvü seçilmişdir. Əsas əsərləri: "İslam şəriətinin məqsədləri", "İslamda sosial sistemin əsasları", "Təhrir və Tənvir" təfsiri və sair – ***tərcüməçinin qeydi.***

[5] Söhbət istənilən hərəkət və davranışdan gedir. Tarixən islam fikrində insanın əməlləri və davranışlarında azad olub-olmamağı müzakirə mövzusu olmuşdur – ***tərcüməçinin qeydi.***

idi, çünki dövr ümmətin bütün səviyyələrdə qarşılaşdığı müxtəlif çağırış və tezisləri qiymətləndirəcək dəqiq elmi metodların tapılmasını tələb edirdi. İbn Aşur digər müsəlman mütəfəkkiri İbn Xəldunun metodoloji fikirlərini sistemləşdirib inkişaf etdirmiş, üsulşünas İmam Şatibinin toxunmadığı məsələlərdən danışmış, "məqasid"[1] təlimini nəzəri müstəvidən praktik müstəviyə daşımağa cəhd göstərməklə özündən sonrakı mütəxəssislərə elmi zəmin hazırlamışdı. O, əsas diqqətini daha çox ailə mövzusuna, ailə ilə əlaqəli hökmlərin hansı məqsəd daşımağı məsələsinə vermişdi. Ailənin məqsədlərini (***məqasid əl-ailə***) sistemləşdirməklə "Münasibətlər fiqhi"nin (***fiqh əl-əlaqat***) əsasını qoyan İbn Aşur qan və nikah qohumluğu, evlilik məsələlərinə kompleks yanaşmış, ailənin məqsədini törəyib-artma ilə məhdudlaşdıran nöqteyi-nəzərdən imtina edərək onu bəşəri münasibətlər sistemi formalaşdıran, dəqiq meyarlarla hüquq və vəzifələrin müəyyənləşdirildiyi mühüm ictimai qurum kimi təqdim etmişdir. Ailə İbn Aşur yaradıcılığında ümmətin kiçik modeli kimi təsvir olunur.

İbn Aşurun Şəriətin məqsədlərindən dərs deyərkən oxuduğu məruzələr sonralar onun "İslam şəriətinin məqsədləri" adlı qiymətli kitabında toplanacaqdı.

İbn Aşurdan sonra mərakeşli alim Əllal Fasi də universitetlərin birində Şəriətin məqsədlərindən məruzə oxumuş, əlaqədar fikirlərini "İslam şəriətinin məqsədləri və tərifəlayiq cəhətləri" adlı kitabında toplamışdı.

Bundan sonra "məqasid" probleminin nəzəri və praktik tərəfləri müxtəlif tədqiqatlarda öyrənilmişdir[2].

---

[1] Hərfi mənası məqsədlər deməkdir. Şəriət hökmlərində məqsədləri öyrənən sahənin adıdır – ***tərcüməçinin qeydi.***

[2] Bu mövzuda kitablar nəşr edilmiş, ciddi elmi araşdırmalar aparılmış, universitetlərdə şöbələr açılmışdır. Bütün bunlar məqasid metodunun təkmilləşdirilməsində mühüm elmi korpusu əmələ gətirir. Bununla da problem nəzəri müstəvidən əməli müstəviyə daşınmışdır. Beynəlxalq İslam Fikri İnstitutunun nəşrləri bu istiqamətdə görülmüş mühüm işlərdəndir.

Bu metodun rüşeymlərinə Camaləddin Əfqaninin[1] müzakirələri və dialoqlarında rast gəlinir. Ondan sonra Məhəmməd Əbduh[2] bu metodun əhəmiyyətini vurğulamış, Quranda xalqlar və mədəniyyətlərə dair qanunauyğunluqların öyrənilməsinə çağırış etmişdir. Tələbəsi Rəşid Rza[3] onun yolunu davam etdirmişdir. Daha sonra "məqasid" təlimi Malik ibn Nəbinin mədəniyyət, sivilizasiya və mədəniləşmədən bəhs edən araşdırmalarında inkişaf etdirilmişdir. Eləcə də digər müasir müəlliflər Qurani-Kərimə dair araşdırmalarında Şəriətin məqsədlərini sosial prizmadan öyrənməyə cəhd göstərmişdilər. Onlar müasir cəmiyyətlərin üzləşdiyi mühüm sosial problemləri (yoxsulluq, zülm, despotizm, qadın iştirakçılığının olmamağı və s.) Qurandan cavablar axtarmaqla "məqasid" kontekstində müzakirə obyekti seçmişdilər.

Məsələn, Quranın struktur bütünlüyü tezisinin işlənib hazırlanması problemə sistemli yanaşmanın göstəricisi idi[4]. Bu tezis Məhəmməd Abdullah Dərrazın "Böyük xəbər" kitabında bütün aydınlığı ilə işlənmişdir. Dərraz Quranın ən uzun və mövzu cəhətdən ən zəngin surəsi – "Bəqərə" surəsinin misalın-

---

[1] **Camaləddin Əfqani (1838-1897)**: Dövrünün islam filosofudur. Əfqanıstanın Əsədəbad şəhərində doğulmuş, Kabildə boya-başa çatmışdır. Təhsilini də elə orada alıb. Riyaziyyatı dərindən öyrənmişdir. Hindistana, Astanaya getmiş, Astana Maarif Şurasının üzvü seçilmişdir. Daha sonra Misirə getmiş, dini-siyasi islahatçılıq barədə düşünməyə başlamışdır. Burada Misirin görkəmli şəxsiyyətlərinin, o cümlədən Məhəmməd Əbduhun müəllimi olmuşdur. Misir hökumətinin təzyiqlərindən sonra Heydərabada, oradan da Parisə səfər etmişdir. Parisdə Məhəmməd Əbduhla birlikdə "Ürveyi-vüsqa" qəzetini təsis etmişdir. İran şahı Nasirəddinlə görüşən Əfqanini şah İrana dəvət edir. Əfqani İrana getsə də, təzyiqlərlə qarşılaşır. Yeddi ay müddətinə məscidlərin birinə çəkilir, mətbu yazılar qələmə alır. Daha sonra çənə sümüyü xərçənginə tutulur (zəhərlədildiyini deyənlər də vardır) və Astanada vəfat edir. Əsərləri: "Əfqan tarixi", "Materialistlərə cavab" və sair – ***tərcüməçinin qeydi.***

[2] **Məhəmməd Əbduh (1849-1905)**: Görkəmli müsəlman reformatoru və mücəddidi. 1899-1905-ci illərdə Misirin baş müftisi olmuşdur. İngiltərənin Misiri işğal etməsindən sonra ölkədə baş vermiş üsyanlara kömək göstərdiyi üçün Şama sürgün edilmişdir. Əsərləri: "Qurani-Kərimin təfsiri" (yarımçıq qalıb), "Tövhid risaləsi" və sair – ***tərcüməçinin qeydi.***

[3] **Məhəmməd Rəşid Rza (1865-1935)**: Müsəlman reformisti, hədis, ədəbiyyat, tarix və təfsir alimidir. Məhəmməd Əbduhun tələbələrindən biri olmuşdur. "Mənar" jurnalının təsisçisidir (Jurnalın materialları 34 cilddə nəşr edilib). "Qurani-Kərimin təfsiri" adlı təfsir kitabı qələmə almışdır – ***tərcüməçinin qeydi.***

[4] Bax: Taha əl-Ülvani. Qurani-Kərimin struktur bütünlüyü. Qahirə: "Şüruq", 2006.

da struktur bütünlüyü məsələsinə toxunmuş, ayələr və ayrı-ayrı fraqmentlər arasındakı əlaqəni, mütənasibliyi, harmoniyanı açıb göstərmişdir.

Müasir alimlərin "məqasid" mövzusu ilə maraqlanmaları dini mətnlərə düzgün münasibəti təmin edəcək üsulların tapılmasına səbəb olmuşdur. Bu üsullar Quranın ümumi prinsipləri, ali dəyər və məqsədlərinin müəyyənləşdirilməsi ilə dini hökmlərdəki məqsədlərin öyrənilməsində rol oynayır.

Alimlər arasında Şəriətin məqsədləri, xüsusən Quran mətnində "məqsədlər"in müəyyənləşdirilməsi yolları mövzusuna dair müzakirələrin başlanması Quran araşdırmalarına, ayə və hədislərin düzgün öyrənilməsini təmin edəcək üsulların tapılmasına köklənmək çağırışı ilə eyni vaxta təsadüf edir. Çağırış olunur ki, dini mətnlərdəki linqvistik məzmun və tarixi-sosial kontekst nəzərə alınsın, müasir dilçiliyin, humanitar-sosial elmlərin nailiyyətlərindən istifadə edilsin, dini mətnlərin ana mənbə olma statusu qorunub-saxlanılmaqla həmin nailiyyətlər hökm çıxarmada metodoloji vasitə seçilsin.

Bu sahəyə dair müasir ədəbiyyatda "məqasid" üsulşünaslığının[1] dinin ümumi prinsipləri (***külliyyat)*** əsasında təsis edilməsi, zənn ifadə edən deyil, ümumi və əsas qaydalara söykənən metodun tapılması başlıca məqsəd seçilmiş, tarixən müsəlman hüquqşünaslarının polemikalarında özünə yer etmiş "qəti-təxmin" dialektikasının aradan qaldırılmasına cəhd göstərilmişdir. Bu səbəbdən müasir alimlər "məqasid" və digər tezisləri müxtəlif bəşəri problemlərə düzgün münasibəti təmin edən ciddi dayaqlar üzərində təsis etmişlər. Belə yanaşma bu və ya digər fəqihə fitvalarında, qanun layihəçisinə qanunvericilikdə, sosioloqa ictimai hadisə və problemləri öyrənməsində yol göstərir, ayrı-ayrı halların vəhdətdə götürülməsini təmin edir.

[1] **Üsulşünaslıq**: islam şəriətinin ehkamlarına (əqidə, dini əməllər, üstün əxlaq dəyərləri) riayət çərçivəsində bu və ya digər problemə dinin münasibətini açıqlamaq üçün dəlillər əsasında mühakimə metodologiyası – ***tərcüməçinin qeydi***.

Taha Cabir əl-Ülvani özündən əvvəlki müəlliflərin tezislərini ümumiləşdirmiş, Qurani-Kərimi hərtərəfli təhlil etdikdən sonra bu nəticəyə gəlmişdi ki, surə və ayələrdə qarşıya qoyulmuş başlıca üç məqsəd mövcuddur: tövhid, tərbiyə və mədəniyyət (abadlaşdırma)[1]. Bu məqsədlər belə bir baza prinsipinə söykənir ki, Allah kainatı yaratmış, insanı yer üzünə oranı abadlaşdırsın deyə varis təyin etmişdir; yer üzündə baş verənlər Allah, varis-insan və istifadəyə verilmiş kainat arasındakı münasibətin nəticəsidir. Yer üzü ilahi yaradılış, iradə və abadlaşdırma meydanıdır, abadlaşmanın həyata keçirilməsi üçün insan oğlunun fəaliyyət göstərdiyi sahədir. Tövhid təlimi Allahın öz bəndələri qarşısındakı haqqını ifadə edir; o, olmadan sistemdən nə isə həyata keçmir, odur ki bütün peyğəmbərlər tövhid təlimi ilə göndərilmişlər. Tərbiyə isə varis edilmiş insan oğlunun ən mühüm keyfiyyətlərindəndir, onsuz insan oğlu varis olmaq və abadlaşdırmaq vəzifəsini icra edə bilməz. Nəhayət, dünya abadlaşdırılmaq üçün yaradılmışdır.

Üsulşünaslıq və fiqh ənənəsini ciddi şəkildə nəzərdən keçirən Ülvani bildirir ki, fəqihlər əsas diqqəti anlayışlara (terminlərə), qəti və təxmini dəlillərin fərqləndirilməsinə, fiqh terminlərinin formalaşdırılmasında məntiq və fəlsəfə tərcümələrindən istifadəyə, fiqh kitablarının yazılmasına vermişlər. Nəticədə fəlsəfə və məntiqdən əxz edilmiş terminlər diqqət mərkəzində olmuşdur. Nəyin vacib (fərz), nəyin məndub[2], yaxud müstəhəb[3], nəyin də haram və ya qadağa olduğunu müəyyənləşdirmək, bu terminləri savab və cəza, tərif və qınaq anlayışları ilə vəhdətdə götürmək, qəti və ya təxmini dəlillərlə əsaslandırmaq başlıca məqsədə çevrilmişdi. Bununla da, fiqh və fiqh üsulşünaslığında natamamlıq özünü göstərmiş, "məqasid" nəzərdən qaçırılmışdır. Düzdür, Şatibi "məqsədlər"dən danışmışdır, amma "məqa-

---

[1] Taha Cabir əl-Ülvani. Şəriətin məqsədləri // "Müasir islam problemləri" seriyası. Beyrut: "Dar əl-Hadi", 2000, səh. 122.

[2] **Məndub:** Şəriətə görə tövsiyə edilən, məsləhət görülən əməllər – ***tərcüməçinin qeydi***.

[3] **Müstəhəb** (***hərf.*** arzu edilən): Şəriət baxımından icrası vacib sayılmasa da, bəyənilən, xoş qarşılanan əməllər (yemək, içmək, yatmaq, gül qoxulamaq və sair) – ***tərcüməçinin qeydi***.

sid" dedikdə əsas diqqətini mükəlləflərlə[1] əlaqəli məqsədlərə vermişdir.

Ülvani öz tezisində insan fəaliyyətini qiymətləndirmək, "etməli, yoxsa etməməli" konsepsiyasından daha münasib formada təsvir etmək üçün "ilk məsələyə qayıtmağ"ın[2], ali məqsədlər və başlıca dəyərlərdən çıxış etməyin zəruriliyini bildirirdi. İlk dövr alimlərinin ikinci dərəcəli hesab etdikləri məntiq məsələləri və fəlsəfi anlayışların müzakirə edilməsindən qabaq böyük alimlər insan fəaliyyətinə bu sayaq – "etməli, yoxsa etməməli" prizmasından yanaşırdılar. Halbuki fəlsəfi-məntiqi anlayışların bir hissəsinə biganəlik Quranın ali məqsədləri və başlıca dəyərlərinə etinasızlıqdan daha xırda səhvdir.

Ülvani hesab edir ki, Şatibi və digər məqasidşünasların mükəlləflərlə əlaqəli "məqsədlər"in səviyyələrinə[3] dair dedikləri üç ali məqsədlə vəhdətdə götürülməlidir: tövhid, tərbiyə və abadlaşdırma.

Ülvani bu nəticəyə gəlmişdi ki, tövhid, tərbiyə və abadlaşdırma Quranın ali məqsədləridir. Bu məqsədləri Quran ayələrini tam şəkildə öyrəndikdə hasilə gətirmək mümkündür. Əlbəttə ki, digər ikincidərəcəli məqsədlərin mövcudluğu istisna edilmir[4]. Belə olarsa, müasir müctəhid və fəqihləri Quran və hədislərə əsaslanan yanaşma tərzi ilə təmin edəcək üsulşünaslıq qaydaları təsis edilə bilər. Nəticədə fiqhin əsasları quran-

---

[1] Öhdəçi (*yaş, dərrakə... baxımından dini öhdəlikləri icra şərtlərinə cavab verən şəxs*) – ***tərcüməşinin qeydi.***

[2] İfadə Əbu Şamə əl-Məqdisiyə aiddir. Məqdisinin "İlk məsələyə qaytarma" adlı traktatı vardır.

[3] Buraya "zərurətlər", "ehtiyaclar" və "yaxşılaşdırıcılar" (gözəlləşdiricilər) daxildir.

[4] Ülvani məqsədlərin bəzi səviyyələrinə toxunmuş, ikinci səviyyə adlandırdığı məqsədlərə ədalət, azadlıq və bərabərlik dəyərlərini aid etmişdir. Ülvani məqsədlərin üçüncü səviyyəsində üsulşünaslar və fəqihlərin Şəriətin məqsədləri hesab etdikləri "zərurətlər, ehtiyaclar və yaxşılaşdırıcıları" qeyd etmişdir. Ülvaniyə görə, bu "məqsədlər" mükəlləflərlə əlaqəli məqsədlərdir, özlüyündə dəyişkən inkişafla ayaqlaşacaq hökmlər sistemi təsis etməyə qadir deyildir. Çünki belə "məqsədlər" təlimi qiyas üsulunu təsdiqləmək və funksionallığını artırmaq, "mənafe" dəlilini qüvvətləndirmək, dinin hökmlərində bəndələrin mənafeyinin nəzərə alındığına inamı artırmaq üçün mövcuddur. Bununla da, öhdəlik yükləyən hökmlər fiqhi mühakimədə natamam istiqamətin yaranmasına səbəb olmuş "əmr və qadağalar"la, linqvistik prinsiplərlə məhdudlaşmışdır.

sayağı olacaqdır. Quran bu əsasları təsis edəcək, hədislər də real-tətbiqi müstəviyə daşıyacaqdır. İnsanlar həm Peyğəmbərin yolu ilə getmək, həm də Quranı əsas götürmək imkanı əldə edəcəklər.

Məqsədlərin aktiv hala gətirilməsi yollarına gəlincə, Ülvani göstərmişdir ki, bu, problemlə məşğul olan alimlərin təcrübələrində mövcuddur. Ülvani onu da qeyd edir ki, aktivləşdirmədə başlıca məsələ "Reallıq fiqhi"nin[1] yaradılması vasitələrinin təkmilləşdirilməsidir. Bu vasitələr təkmilləşdirilərsə, aktivləşdirmə üsulunun müəyyənləşməsini təmin edəcək metodoloji addımlar atıla bilər.

"Məqasid" təliminin əhəmiyyəti ondadır ki, dini mətnləri "daxil"dən başa düşməyə kömək edən real metod təqdim edir. Beləliklə, bu və ya digər müctəhid həm dini hökmlərin çıxarılması və tətbiqi, həm tətbiq prosesinə nəzarət, həm də nəticələrin yoxlanılması ilə əlaqəli "yol xəritəsi"nə sahib olur. Həmçinin fiqhi fikir ayrılıqları və müzakirələrdə "məqasid" təliminin meyar seçilməsi səmərəlidir; bu vaxt dini mətnlərin fərd, ailə və cəmiyyət müstəvisində gerçək tətbiqi baş verir.

Bu dialoq üsulşünas-alim, professor Taha Cabir əl-Ülvaninin "məqasid" sahəsində təqdim etdiyi mühüm metodoloji tezisi öyrənmək məqsədilə aparılmışdır. Həmçinin dialoq Ülvaninin təqdim etdiyi metodun əməli-tətbiqi tərəflərini üzə çıxarmaq məqsədi daşıyır, Quranın ali məqsədləri: tövhid, tərbiyə və abadlaşdırma ilə əlaqəli konsepsiyanı, tətbiqi yollarını öyrənir.

***Zeynəb əl-Ülvani***

[1] Dini mətnlərin tətbiq edildiyi real şəraiti, mövcud reallığı, insanların problemlərini, bacarıqlarını, onlara təsir edən amilləri, mövcud vəziyyətdə və müəyyən mərhələ ilə tətbiq ediləcək dini mətnləri, əlverişli mühit yarananadək hansı dini öhdəliklərin təxirə salınacağını öyrənən sahə – ***tərcüməçinin qeydi.***

# Quranın ali məqsədləri və trio-sistem: tövhid, tərbiyə və abadlaşdırma

***Sual:*** Biz Qərbdə yaşayır və müəyyən problemlərlə üzləşirik. İstəmirik ki, fitva verəcək şəxs bu problemləri həll etmək üçün Zərurət fiqhinə, yaxud "Fiqhin əsasları" fənnini keçərkən "qeyri-məqbul" deyə öyrəndiyimiz hökmlərə üz tutsun. Söhbət ilk dövr alimlərinin qiyas[1] əsasında müəyyənləşdirdikləri hökmlərin elə qiyas yolu ilə indiki dövrə daşınmasından gedir. Bilirsiniz ki, üsulşünaslar bu üsulu qeyri-məqbul hesab edirlər. Çünki bu üsul yeni hökmlərin qiyas yolu ilə verilən hökmlərdən eyni üsulla – qiyas əsasında çıxarılmasına səbəb olacaqdır. Çoxları istifadə etsə də, bu üsul üsulşünaslar tərəfindən yekdilliklə qadağan edilib.

Bu səbəbdən çoxları sizin Quranın ali məqsədlərinin üç: tövhid, tərbiyə və abadlaşdırma olduğunu deyən tezisinizlə maraqlanır. Amma biz bu tezis ətrafında fikirlərin haçalandığının şahidi oluruq. Bəziləri bu məqsədləri yuxarıda adı çəkilmiş üç məsələ ilə məhdudlaşdırmağın zəruriliyindən danışır. Başqaları isə hesab edir ki, siz bu tezisi irəli sürərkən həmin məqsədləri aktivləşdirməyin yollarını göstərməmişsiniz. Tezisinizin əvvəlki tezislərdən fərqli olmadığını deyənlər də vardır. Tezisinizə aydınlıq gətirmək, bununla da oxucuları, xüsusən fiqh və fiqh üsulşünaslığı ilə maraqlanan şəxsləri tezisiniz barədə məlumatlandırmaq üçün sizinlə söhbətləşmək qərarına gəlmişik. Necə oldu ki, bu tezisdən çıxış etdiniz? Tezisinizi əməli-tətbiqi müstəviyə daşımağın yolları hansılardır? Bu tezis üsulşünaslar və fəqihlərə Quran və Sünnədən hökmlər çıxarmada necə kömək edə bilər?

---

[1] **Qiyas** (hərf. müqayisə): ayə və hədislərdə izahını tapmış oxşar məsələlərlə müqayisə aparmaqla Quran və Sünnədə münasibətin bildirilmədiyi məsələ haqqında hökm çıxarma – ***tərcüməçinin qeydi.***

# Metodların yenilənməsi zərurəti

***Cavab***: Şəriət təhsilimə 1949-cu ildə başlamış, məscidlərdə ənənəvi qaydada dərs deyən müəllimlərdən savad almışam. Onların çoxu mənə icazət[1] vermişdir. Şeyx Əbdüləziz Samirai, hənəfi fiqhi üzrə mənə icazət vermiş Şeyx Əmcəd Zəhavi, ümumi icazət vermiş Şeyx Həfid Əbüssəna, 1954-cü ilə qədər İraq müftisi olmuş Şeyx Qasım Qeysi, İmami-Əzəm Əbu Hənifə Nöman məscidinin xətibi Şeyx Əbdülqadir Xətib, Şeyx Məhəmməd Qizilci İraqda mənə dərs demiş alimlər idi. Misirdə isə müəllimlərim Şeyx Mustafa Əbdülxaliq, Şeyx Əbdülqəni Əbdülxaliq, Şeyx Mustafa Mücahid, Şeyx Taha Dinari, Şeyx Cadürrəbb Ramazan, Şeyx Məhəmməd Says, Şeyx İsa Mənun olmuşlar. Savad aldığım son müəllimim Şeyx Əbdüləziz ibn Baz idi. Şeyx İbn Üseyminə gəlincə, onunla söhbətləşir və bu söhbətlərdən faydalanırdıq. Məni yoldaşlarından hesab edirdi. Həmçinin Məhəmməd Behcət əl-Əsəri ilə müzakirələr aparardım. Allah onların hamısına rəhmət etsin!

Təhsilimi başa vurduqdan sonra məscidlərdə, dərs məclislərində, kollec və universitetlərdə tədris işi ilə məşğul olmağa başladım. On ilimi İmam Məhəmməd ibn Səud adına İslam Universitetində fiqh və fiqh üsulşünaslığından dərs deməklə keçirdim, onlarla dissertantın elmi rəhbəri oldum. Tələbələrimin arasında dünyanın məşhur universitetlərində dərs deyənləri vardır. Nəhayət, ABŞ-da məskunlaşdım. Bu ölkələrdə iyirmi beş il keçirmişdim. Hər gün mənə İslam şəriətinin müxtəlif məsələlərə münasibəti haqqında ona yaxın sual ünvanlanırdı. Sualların, haradasa, hamısı yeni problemlərlə əlaqəli idi; bu suallara İbn Qüdamənin "Müğni", İbn Həzmin "Mühəlla", Sərəxsinin "Məbsut", Şafiinin "əl-Ümm" kitablarında qənaət-

[1] Müsəlman dünyasında Quran və hədis elmlərində ustadlıq səviyyəsinə çatmış şəxslərə müəllimləri "icazət" adlandırılan şəhadətnamə verirdilər. Bununla da, həmin şəxslər Quranı və hədisləri başqalarına öyrətmək səlahiyyəti qazanırdılar – ***tərcüməçinin qeydi.***

bəxş cavablar tapa bilmirdim. Başlıca Səkkiz Məzhəbin fiqh məcmuələrindən hasilə gətirdiyim cavablar da könlümə yatmır, ürəyimi sıxır və bu cavabları dilimə gətirmək istəmirdim. Elə olurdu ki, özümlə tək qalır, bəzən də ağlayırdım; çaş-baş qalır və bu vəziyyətdən ancaq Quran oxumaqla xilas olurdum. Quran özünün ümumi anlayışları, qanunauyğunluqları, aydın izahları ilə məni çaşqınlıqdan qurtarır, könlümə və ağlıma yəqinlik bəxş edirdi.

Görmüşdüm ki, Qərbdə yaşadığımız halda dövrün problemlərini ənənəvi qaydada həll etmək, yeni məsələlərə keçmişdən cavab tapmaq istədiyimizdə çıxılmaz vəziyyətə düşürük. Çünki keçmişdə verilmiş cavablar fərqli dövrün məhsulu idi. Ənənədə cavab axtarmaq, yeni suallara cavab tapmaq məqsədilə onu dirçəltməyə cəhd göstərmək bizə müvəffəqiyyət gətirməyəcəkdir. Belə yanaşma bəzən gənclərimizi pozitivist-dünyəvi ideyalara yönəldir; nəticədə "Həll yolu islamdan keçir; islam bütün coğrafiyalar və dövrlər üçün münasibdir; islam həyatı yenidən formalaşdırmağa qadirdir" kimi tezislərimiz haqqında bir daha düşünməli oluruq. Bütün bu tezislər əməli olmayıb, təhrikedici səciyyə daşıyır.

Elə isə yaşadığımız reallıqdan siyasi, ictimai, iqtisadi və mədəni cəhətdən fərqlənən keçmiş reallıq üçün düşünülmüş cavablar və həll yolları üzərində dayana bilməyəcəyik. Ənənəyə qayıtmaq, keçmişlə indi arasında körpü qurmaq problemlərimizi həll etməyəcək, bizə yol göstərməyəcəkdir.

Deməli, Allahın kitabına qayıtmalı idik. Quran Peyğəmbərin bizə qoyub getdiyi aydın yol olub, bizi hər növ hərc-mərclikdən xilas edə bilər. O, hansı isə dövrdə, yaxud coğrafiyada ayaq saxlamayan, kainat və zamanı ehtiva edən kitabdır. Quran kainat və insandakı inkişafla ayaqlaşmağı bacaran mütləq kitab, təhrif olunmuş peyğəmbərlik təlimlərini təshih və təsdiq edən mənbədir. Quran Allahın: "hər şeyin izahı" – deyə təsvir etdiyi kəlamdır. Allah onda nəyisə əskik buraxmamışdır. O,

insanların ixtilafa düşdükləri hər bir məsələyə aydınlıq gətirir. O, bütünlükdə haqdır, insanların gətirdiyi elə bir məsəl yoxdur ki, Quranda ondan daha düzgünü, daha müfəssəl izah edilmişi olmasın.

## Başlıca məqsədlər

Hərtərəfli araşdırmadan sonra bu nəticəyə gəldim ki, Quran surələri və ayələrində üç başlıca məqsəddən danışılır:

Birincisi tövhid, yəni Uca və Pak Allahı rəbbolma, ilahilik və atributlarda tək hesab etməkdir. Onun heç bir şəriki yoxdur. Tövhid Quranın ali məqsədlərinin zirvəsi hesab olunur, digər heç bir məqsəd onun qədər əhəmiyyətli deyildir. Tövhid yuxarıda qeyd edilənlərlə yanaşı, həm də görünməz aləmi əhatə edir. Çünki tövhid görünməz və görünən dünyaların mehvəridir. Hər iki dünya ümumi və xüsusi müstəvidə tövhidə, təzahürlərinə möhtacdır. İstənilən insan fəaliyyəti mənfi və müsbət mənada birbaşa tövhiddən təsirlənir; insan fəaliyyətinin qiymətləndirilməsi böyük ölçüdə tövhidə riayət etməkdən asılıdır.

Şanlı Quranın ikinci məqsədi tərbiyədir. İnsan özünü, ətrafını, cəmiyyətini, iç-içə olduğu hər şeyi tərbiyə etməlidir. Tərbiyə Allaha verilən sözü tutmada, varislik vəzifəsini yerinə yetirmədə, Allahın insan oğluna yüklədiyi əmanətə sahib çıxmada müvəffəqiyyəti təmin edir. İnsan özünü tərbiyə edərsə, ilahi imtahandan üzüağ çıxacaqdır:

"Nəfsini (günahlardan) təmizləyən mütləq nicat tapacaqdır!

Onu (günaha) batıran isə, əlbəttə, ziyana uğrayacaqdır" (əş-Şəms, 9-10).

Bu səbəbdən tərbiyəni mühüm əsaslardan hesab edirik. Quranın tövhiddən bəhs edən surə və ayələri, hətta tövhidin özü tərbiyə ilə qırılmaz surətdə əlaqəlidir. Odur ki Quranda başlıca mövzulardan birini tərbiyə təşkil edir.

Üçüncü başlıca məqsəd abadlaşdırmadır. Abadlaşdırma dedikdə yer üzünü abadlaşdırmaq, Allahın bəxş etdiyi aşkar və

gizli sərvətlərdən istifadə etmək başa düşülür. Torpaq baxımsız qaldıqda, əkilmədikdə, məskunlaşma olmadıqda ölü torpağa çevrilir. Onu münbitləşdirmək üçün abadlaşdırmaq lazımdır, belə olduqda o, məhsul verəcəkdir. Dünyada hər şey belədir.

İnsan fəaliyyəti bu üç məqsəd arasındakı qarşılıqlı təsirin nəticəsidir. İnsan fəaliyyətini məhz bu üç məqsədlə vəhdətdə götürmək, onlardan çıxış etməklə qiymətləndirmək lazımdır. Yaxşı və məqbul fəaliyyət tövhiddən çıxış edən, eyni zamanda tərbiyə edilmiş, qayəsi məhv edib dağıtmaq deyil, abadlaşdırmaq, qurub-yaratmaq olan insandan hasilə gələn fəaliyyətdir.

Bu üç ali məqsəd Quran ayələrinin hərtərəfli öyrənilməsinin nəticəsində hasilə gəlmişdir və onlardan ikincidərəcəli məqsədlərin törəməsi mümkündür. Belə olduqda mövcud biliklər sistemi üsulşünaslıq qaydaları təsis edə biləcəkdir. Belə qaydalar isə müasir müctəhidləri, fitva verən tərəfləri Quran və Sünnəyə əsaslanan yeni növ düşüncə tərzi ilə təmin edəcəkdir. Hər bir vəziyyətdə fiqhin mənbələri quransayağı olacaqdır. Quran bu mənbələri təsis edəcək, Sünnə də onu real-əməli müstəviyə daşıyacaqdır.

Hal-hazırda bu üç məqsədi Quran fiqhi əsaslarının yaradılmasında, yeni məsələlərdə Quran fiqhi hökmlərinin çıxarılmasında aktivləşdirmək və bu işdə Peyğəmbər təcrübəsindən istifadə etmək üzərində işləmək lazımdır.

## Aktivləşdirmə vasitələri və icra mexanizmləri

Bu sistemin inşa edilməsi mərhələsində qarşılaşdığımız başlıca çətinlik onu bir müctəhidin fərdi şəkildə aktivləşdirə, yaxud işlək vəziyyətə gətirə bilməməsidir. Çünki bu sistemin işlək hala gətirilməsi, hər şeydən əvvəl, faktları uyğunlaşdırmaq, ayrı-ayrı aspektlərini başa düşmək, dəyişilən məsələləri müəyyənləşdirmək, ümumi və xüsusi cəhətləri fərqləndirmək

bacarığı tələb edir. Heç də gizli deyildir ki, bu prosesə sosial və fiziki elmlər üzrə mütəxəssislərin tam korpusu cəlb edilməlidir. Bu mütəxəssislər faktlara dair verilənləri, dəyişiklikləri öyrənib, problemi sual şəklində sözügedən üç məqsədlə məşğul olan alimlərə təqdim edəcəklər. Məqasidşünas-alimlər bəzi sosial elmləri bilməli, təbiət elmlərinə dair ümumi biliklərlə tanış olmalıdırlar. Bununla da, onlar həmin mütəxəssislərin müddəalarından, təqdim etdikləri problemlərdən xəbərsiz qalmayacaqlar.

Belə olarsa, barəsində danışdığımız sistem düzgün işləyəcək, insan həyatına yön verəcəkdir. Bu o deməkdir ki, bizim dəyişkən reallıqla ali məqsədlərin əlaqəsini düzgün tənzimləmək üçün birlikdə, tam harmoniya içərisində fəaliyyət göstərəcək müxtəlif ixtisaslı kadrlara – alimlərə ehtiyacımız vardır. Hazırlıqlı mütəxəssislər üçün bizə həmin kadrları hazırlayacaq proqramı olan universitet və institutlar lazımdır.

## Ənənəvi fiqhə yenidən baxış: tətbiqi nümunələr

Ənənəvi fiqhin keçmişdə məşğul olduğu bəzi məsələlərə yenidən nəzər salıb, yuxarıda danışdığımız sistem əsasında toxunmağımız münasib olacaqdır. Nəticədə əvvəlki alimlərin həmin məsələlərə dair fitvalar verərkən haqqında danışdığımız "məqsədlər"i nə dərəcədə nəzərə aldıqlarını müəyyənləşdirmiş olacağıq.

***Birinci nümunə*: Yer üzünün təsnifatı**

Yer üzünün təsnifatı məsələsinə Quranın başlıca prinsipləri əsasında baxdıqda görürük ki, bu təsnifat (darülislam[1], darül-

[1] **Darülislam**: islam torpaqları, islam yurdu – ***tərcüməçinin qeydi.***

hərb[1], darüləhd[2] və s[3].) müəyyən tarixi şəraitlə – reallıqla əlaqə-

[1] **Darülhərb** (hərf. müharibə yurdu). Müsəlmanlara ədavət bəsləyən, onların azadlığı və əmin-amanlığı üçün təhlükə yaradan qeyri-islam torpaqları – ***tərcüməçinin qeydi.***

[2] **Darüləhd** (hərf. müqavilə yurdu). Əhalisi ilə sülh bağlanmış qeyri-islam torpaqları – ***tərcüməçinin qeydi.***

[3] Şeyx Ülvani fiqhə görə yer üzünün ənənəvi təsnifatı probleminin metodoloji təhlilini aparmış, gəldiyi nəticələri 2009-cu ildə Omanda keçirilmiş "Fiqh elmlərinin inkişafı" simpoziumuna təqdim etdiyi "Azlıqlar fiqhinə giriş" adlı araşdırmasında göstərmişdir. Araşdırmanın başlıca müddəaları aşağıdakı kimidir:
1) Əvvəlki fəqihlərdən bəziləri Şəriətin mənbələrinin dəqiq ardıcıllığını göstərməyiblər. Halbuki dəqiq ardıcıllığın göstərilməsi həmin mənbələrdən dövrün problemlərinə dair düzgün hökmlərin çıxarılmasını təmin edə bilərdi. Bu mənbələrin təklif olunan ardıcıllığı Qurani-Kərimin Şəriətin başlıca mənbəyi, təsisedici və təsdiqləyici məxəzi hesab olunması prinsipinə əsaslanır. Quran mütləq, qurucu və hökmləri aşkara çıxaran mənbədir, nəsxdən uzaqdır, əleyhinə digər mənbələrdən dəlillərin gətirilməsi mümkün deyildir. Həmçinin bu ardıcıllıqda Sünnə Quranı şərh etməsi ilə bütünləşən izahedici və öhdəlik yükləyən mənbə hesab olunur. Sünnə nümunə və model təqdim etmək üçün Quranı açıqlayır, ona tabedir və ayələri tətbiq edir.
2) Əksər fəqihlər müsəlman-qeyri-müsəlman münasibətlərinə dair nəzəri müddəalarda islam beynəlmiləlçiliyini nəzərə almamış, "sonuncu ilahi təlim və şahid ümmət" anlayışı ilə üst-üstə düşməyən "qapalılıq"dan söz açmışlar. Həmçinin müəyyən coğrafi-ictimai areala vurğu edilmiş və islamın bu arealla əlaqəsinə dair əcaib təsəvvür formalaşdırılmışdır.
3) Fəqihlər dünyanın beynəlxalq təsnifatını apararkən yaşadıqları dövrün real-tarixi ənənəsinin təsiri altında qalmış, quransayağı coğrafiya anlayışından uzaq düşmüşdülər. Ənənəvi fiqh çox vaxt məhəlli səciyyə daşımışdır.
4) Ali dəyərlər və Şəriətin məqsədləri (tövhid, tərbiyə və abadlaşdırma) kifayət qədər qabardılmamış, bununla da, fiqhə natamam baxış meydana çıxmışdır. İmam Qəzali yazırdı ki, "...fiqh (ümumi deyil), xüsusi elmlərdəndir".
5) Peyğəmbərin zamanından sonra müsəlmanların müsəlman olmayan ölkələrə haqlarını bərpa etmək üçün, yaxud zülmdən qaçaraq üz tutmalarına ehtiyac yox idi. Müsəlman torpaqları sarsılmaz və qüdrətli idi, siyasi sərhədlərlə bir-birindən ayrılan ərazilərə bölünməmişdi. Bir müsəlmana dünya dar gəlsəydi, qapılar üzünə bağlansaydı, özünü qərib hiss etmədən geniş islam diyarının istənilən yerinə gedə bilirdi.
6) Müsəlman fəqihlərinin yaradıcılığında "vətəndaşlıq" anlayışı öz əksini tapmamışdır. Həmin dövrdə hansı isə mədəniyyətə, yaxud bu və ya digər imperatorluğa mənsub olmaq anlayışı hakim idi. Belə mənsubluq çox vaxt dini, yaxud adət-ənənə səciyyəli meyarla şərtlənirdi. Belə mənsubluğun fonunda özgələrə (özündən olmayanlara) ehtiyatlı münasibət mövcud idi. Hər bir halda, Müsəlman dünyasında müsəlman olmayanlara münasibət İspaniya inkvizisiya məhkəmələrinin özlərindən olmayanlara münasibətindən daha tolerant idi.
7) Yad ölkədə yaşamaq fərdlərə vətəndaşlıq haqqı vermirdi. Gəlmə şəxs yerli inancı, yaxud adətləri qəbul etdiyi təqdirdə yerliyə (vətəndaşa) çevrilirdi. Yox, öz dinini, adət-ənənələrini qoruyub-saxlasaydı, qalma müddətindən asılı olmayaraq, özgə (müxalif) sayılırdı.
8) Qədim dünyaya beynəlxalq hüquq, yaxud diplomatik münasibətlər deyilən anlayışlar məlum deyildi. Məhz beynəlxalq hüquq və diplomatik münasibətlər bu və ya digər dövlətə başqa dövlətlərin onun ərazisində yaşayan vətəndaşlarını qorumağı zəruri edir.

dar olmuşdur. Həmin reallığı qanunlarla "tabu"ya çevirmək, "leqallaşdırmaq" əvəzinə, dəyişdirmək lazım idi. Çünki bu reallıq sözügedən "məqsədlər"ə söykənən fiqh və fiqh üsulşünaslığına görə bir neçə səbəbdən qeyri-məqbuldur. Bu səbəblərin bir hissəsi tövhidlə əlaqəlidir. Çünki tövhid bəşəriyyətin birliyini zəruri edir; belə ki insan tək candan (şəxsdən) yaradılmışdır. Bəşəriyyətin birliyi isə ərazinin birliyini zəruri edir. Yer kürəsi bütün insanların yaşadığı ailədir, beşikdir.

Həmçinin yer üzünün yaradılıb insanın beşiyi edilməsi prinsipi dünyamızı getdikcə böyüyən bəşəriyyət ailəsinin evinə çevirir[1], Allahın yaratdığı nemətləri bu ailənin üzvləri arasında bölür. Elə isə bəşəriyyətin və yer üzünün birliyi prinsipi baxımından yuxarıdakı təsnifat məqbul hesab olunmur. Eləcə də təsnifata səbəb olan hansı isə reallıq ona legitimlik qazandırmır.

Tərbiyə məsələsinə nəzər salsaq, görürük ki, tərbiyə sülhün dünyada bərqərar olmasını tələb edir. Müharibə vəziyyəti istisna olub, bəşəri təsəvvürlərdəki, dünyagörüşündəki, əxlaq və davranışlardakı sapmadan xəbər verir. Müharibə insanları

---

9) Həmin dövrdə imperiyalar arasındakı münasibətlərə güc məntiqi hakim idi. Hər dövlət digər dövlətin ərazisinə istila yolu ilə qismən, yaxud bütünlükdə ilhaq edilməsi mümkün "müharibə torpaqları" gözü ilə baxırdı. İmperiyaların nəzərində ordunun hücumu davam etdirə bilmədiyi ərazilər sərhəd hesab olunurdu.

10) Fəqihlərimiz indi yaşadığımız, mədəniyyətlərin iç-içə olduğu, xalqların bir-birinə inteqrasiya etdiyi dünyada yaşamırdılar. Onların dünyası birgəyaşayış və qarşılıqlı anlaşma nədir bilməyən "adalar"dan ibarət idi. Dövrün tələblərinə uyğun olaraq, "Müharibə fiqhi" daha aktual idi. Bu gün kəmiyyət və keyfiyyətcə fərqlənən reallığımızda xalqların birgəyaşayışını təmin edəcək fiqh sahəsinin yaradılmasına ehtiyacımız vardır.

11) Bəzi klassik və sonrakı dövr fəqihlərinin fitvalarında yaşadıqları dövrün reallığı əks olunub. Buraya İbn Teymiyyənin "İqtiza əs-sirat əl-müstəqim müxaləfətən li-əhl əl-cəhim", "əs-Savab fi qəbh istiktab əhl əl-kitab", "Nəhy ən əl-istianə vəl-istinsar fi umur əl-müslimin bi əhl əz-zimmə vəl-küffar" kitablarını, XX əsrin əvvəlində Əlcəzair alimlərinin Fransa vətəndaşlığını daşımağın haram olmağına dair fitvalarını aid etmək olar. Bu kitablar və fitvalar dövrümüzdəki müsəlman azlıqların öz mədəni həyatlarının bir parçasına çevirməyə lüzum görmədikləri mübarizə mədəniyyətinin məhsuludur. Hər dövrün öz reallığı və tələbləri vardır.

[1] Ülvaninin işarə etdiyi yer üzü prinsipi bir çox, xüsusən aşağıdakı ayələrdə aydın görünür: "O Allah ki, sizin üçün yer üzünü döşədi, göyü isə tavan yaratdı, göydən yağmur endirdi və onun vasitəsilə sizin üçün müxtəlif meyvələrdən ruzilər yetişdirdi. İndi siz də Allaha (Onun heç bir oxşarı və bənzəri olmadığını) bilə-bilə şəriklər qoşmayın!" (əl-Bəqərə, 22); "Məgər Biz yeri döşək etmədik?!" (ən-Nəbə, 6).

qarşılıqlı zülmə sürükləyir. Allah Adəmin iki oğlunun əhvalatını buna misal çəkir[1]. Bütün bunlar tərbiyə (***təzkiyə***) prinsipinə zidd olub, tərbiyənin ziddi hesab olunan "korlama"ya (***tədsiyə***) dəlalət edir. İnsanın yer üzünü xaraba qoyması dünyagörüşü və davranışda sapmaq, ixtiyarımıza verilmiş yer üzünə təcavüz etmək deməkdir.

### *İkinci nümunə*: Sülh və müharibə baxımından bəşəri münasibətlər

Xalqlararası münasibətlərdə sülhün, yoxsa müharibənin əsas götürülməsi məsələsinə nəzər salsaq, ənənəmizdə müxtəlif və ziddiyyətli yanaşmaların şahidi olarıq. Quranın başlıca məqsədlərini nəzərə almaq hərtərəfli tədqiqatı təmin edə bilər. Əsas olanı bütün bəşəriyyətin ortaq düşmənlə – Şeytanla mübarizədə birləşməsidir:

"(Ya rəsulum!) Bəndələrimə de: "(Danışdıqları zaman "la ilahə illallah; yərhəmukəllah; yəğfiru ləkəllah" kimi) gözəl sözlər söyləsinlər (və ya müşrikləri imana dəvət edərkən onlarla xoş danışsınlar!)" Şeytan onların arasına fitnə-fəsad sala bilər. Həqiqətən, Şeytan insanın açıq-aşkar düşmənidir!" (əl-İsra, 53);

---

[1] "(Ya rəsulum!) Onlara Adəmin iki oğlunun əhvalatını olduğu kimi söylə. Onlar qurban gətirdikləri zaman birinin qurbanı qəbul edilmiş, digərininki isə qəbul olunmamışdı. (Qurbanı qəbul olunmayan Qabil qardaşı Habilə) demişdi: "Səni mütləq öldürəcəyəm! (Habil ona) belə cavab vermişdi: "Allah yalnız müttəqilərdən (qurban) qəbul edər! Sən məni öldürməkdən ötrü mənə əl qaldırsan da, mən səni öldürmək üçün sənə əl qaldıran deyiləm. Mən aləmlərin rəbbi olan Allahdan qorxuram. Mən istəyirəm ki, sən (məni öldürməklə) mənim də günahımı öz günahınla birlikdə üstünə götürəsən və beləliklə də, Cəhənnəm sakinlərindən olasan. Zalimlərin cəzası budur!" Nəfsi onu (Qabili) qardaşını öldürməyə sövq etdi, onu (Habili) öldürdü və bununla da zərərçəkənlərdən oldu. Sonra Allah qardaşının cəsədini necə basdırmağı ona göstərmək üçün yer eşən bir qarğa göndərdi. (Qabil) dedi: "Vay halıma! (Gör nə günə qalmışam!) Bu qarğa qədər olub qardaşımın cəsədini də basdıra bilmərəm?" O, artıq peşman olmuşdu. Buna görə də İsrail oğullarına (Tövratda) yazıb hökm etdik ki, hər kəs bir kimsəni öldürməmiş (bununla da özündən qisas alınmağa yer qoymamış) və yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə, o, bütün insanları öldürmüş kimi olur. Hər kəs belə bir kimsəni diriltsə (ölümdən qurtarsa), o, bütün insanları diriltmiş kimi olur. Bizim peyğəmbərlərimiz onlara (İsrail oğullarına) açıq möcüzələr gətirmişdilər. Bundan (bu möcüzələrdən) sonra da onların bir çoxu yer üzündə (küfr, qətl və cinayət etməklə) həddi aşdılar" (əl-Maidə, 27-32).

“Ey iman gətirənlər! Hamınız bir yerdə sülhə (islama) gəlin! Şeytanın yolu ilə getməyin, çünki o sizin açıq düşməninizdir!” (əl-Bəqərə, 208).

Şeytan insanların arasına təfriqə salmağa çalışır. Bu səbəbdən müharibə və çəkişmələr pozuq dünyagörüşünün nəticəsidir. Belə pozuq dünyagörüşü Allahın tanışlığa qapı açmaq üçün yaratdığı fərqləri (dil, rəng...) ziddiyyət və mübarizə vasitəsi kimi göstərir. Qurandakı ali məqsədlərə müraciət bəşəriyyətin gedişini düzəltməyə, dünyagörüşünü sağlamlaşdırmağa, ixtilaf və ziddiyyətləri aradan qaldırmağa zəmanət verir.

Azadlıq hüququna da (etiqad azadlığı, vicdan azadlığı, mülkiyyət azadlığı, sərbəst yerdəyişmə azadlığı) bu aspektdən baxmaq mümkündür. Belə olduqda azadlıq məfhumunu Quranın ali məqsədlərindən irəli gələn düşüncə tərzi ilə izah edəcək, ənənəvi fiqhin toxunduğu bir çox məsələyə müxtəlif ixtisas sahiblərinin ortaq qərarlarını əks etdirən kollektiv ictihad əsasında yenidən münasibət bildirəcəyik. Yeniliklərə münasibətdə “məqasid” təliminə söykənən metodoloji yanaşma ortaq məxrəcə gəlməni təmin edə bilər.

**Siyasi aspekt**

***Sual:*** “Fitvalarda anarxiya” adlanan şeydən şikayətlər artır. Bəlkə də, nə vaxt isə insanlara aydın olacaqdır ki, belə anarxiyadan xilas olmağın yeganə yolu başlıca “məqsədlər”in istinad-mənbə seçilməsidir. Belə istinad-mənbə Qurandır, odur ki Quranın ali məqsədlərini gerçəkləşdirməyə çalışan alimlər onlara ünvanlanmış suallara aydın və düşünülmüş cavablar verəcəkdir. Çünki sualları Quranın ali məqsədləri əsasında nəzərdən keçirmək düzgün və münasib cavabların tapılmasını təmin edə bilər. Daha çox müzakirə olunan suallardan biri də islamda cihad anlayışı ilə əlaqəlidir. Bu məsələyə təklif etdiyiniz “məqasid” təlimi əsasında aydınlıq gətirə bilərsinizmi?

***Cavab:*** Ənənəmizdə cihad probleminə Quranın cihad konsepsiyası əsasında dəqiq münasibət bildirilməyib. Cihad və

"siyər"[1] mövzusunda yazan müəlliflərin mövzunu işləmə üslubundan oxucu belə başa düşür ki, cihad din naminə, yaxud islamı başqalarına qəbul etdirmək üçün aparılan savaşdır. Bu müəlliflər cihadın "müdafiə" və "hücum" formalarından söz açmışlar. Müharibəyə dair hökmlər məhz belə təsəvvürün məhsuludur. Əsirlərə, müqavilələrə, qənimətlərə, döyüş hazırlığına dair hökmlər, yer üzünün "darülhərb və darülislam"a bölünməsi – bütün bu məsələlərdə əvvəlki fəqihlərin əksəriyyəti cihadı savaşla eyniləşdirən təsəvvürdən çıxış edirdilər.

Çoxları belə düşünür ki, müsəlmanlar "İnsanlar "Allahdan başqa ilah yoxdur" – deyənədək mənə onlarla savaşmaq əmr olundu. Kim: "Allahdan başqa ilah yoxdur", – deyərsə, islamın haqqı istisna olmaqla, canı da, malı da toxunulmazdır" hədisinə əsasən insanları zorla müsəlman etmək üçün savaşırlar. Qeyd edim ki, bu hədis istinad və məzmun baxımından səhih deyildir. Deyilənə görə, hədis Əbubəkr Siddiq tərəfindən dönüklərlə müharibə vaxtı tez-tez dilə gətirilmiş, 234 istinadla rəvayət edilmişdir. Bu istinadların qırxı Zöhriyə, iyirmi dördü Ə`məşə, iyirmisi Həmid ət-Təvilə, on altısı Şüeyb ibn əbu Həmzəyə, on ikisi Süfyan Sövriyə, altısı Həsən əl-Bəsriyə, dördü Şüreyk Nəxəiyə gedib çıxır. Bunların hamısı müdəllis[2] ravilər hesab olunur. Hədisşünaslıq və istinad tənqidi qaydalarına görə bütün bu istinadlar "qaranlıq"dır. Həmçinin hədisin məzmunu aşağıdakı ayəyə aşkar şəkildə ziddir:

"Dində məcburiyyət (zorakılıq) yoxdur. Artıq doğruluq (iman) azğınlıqdan (küfrdən) ayırd edildi. Hər kəs Tağutu (Şeytanı və ya bütləri) inkar edib Allaha iman gətirsə, o, artıq (qırılmaq bilməyən) ən möhkəm bir ipdən (dəstəkdən) yapışmış olur. Allah (hər şeyi olduğu kimi) eşidəndir, biləndir!" (əl-Bəqərə, 256).

Hədis alimləri həmrəydirlər ki, hər hansı bir hədisin Qurana zidd olmağı onun səhih olmadığını göstərir. Həmçinin istinad-

---

[1] Peyğəmbərin həyatı.

[2] Rəvayət etdiyi hədisdəki qüsuru ört-basdır edən ravi – ***tərcüməçinin qeydi.***

larda başqa nöqsanlar vardır, istəyənlər mötəbər tənqidçilərin əsərlərinə müraciət edə bilərlər.

Həmçinin istinadların iyirmi üçü Səmmak ibn Hərbə, səkkizi Küseyr ibn Übeydə, dördü Süfyan ibn Amir ət-Tirmiziyə, üçü Ziyad ibn Qeysə, biri Hatəm ibn Yusif əl-Cəllaba, biri Əbdürrəhman ibn Übeydullaha, biri Fatimənin qulamı Əcrana, biri Əbu Übeydə Müslim ibn əbu Kəriməyə qayıdır. İki istinad isə mürsəldir[1]. Ravilərdən Səmmak "zəif", digərləri isə "məchul"dur. Eləcə də hədisin istinadlarından yeddisi Əta ibn Əbdürrəhmana, ikisi Süleyman ibn əbu Davuda, biri Ömər ibn Əbubəkr əl-Mövsuliyə, biri Yəhya ibn Əyyub əl-Ğafiqiyə, biri Əhməd ibn Süleyman əl-Vasitiyə, biri Əbu Əhməd Əbdürrəhman əl-Vəkiiyə gedib çıxır. Bu ravilərin heç biri mütləq mənada "avtoritet" hesab edilmir. İstinadlar "qaranlıq" olub mötəbər deyildir. Həmçinin istinadlarda digər nöqsanlar da vardır. Biz bu istinadları tam şəkildə araşdırmışıq. Bu istinadların heç biri hədis alimlərinin məqbul hesab edəcəyi qədər sağlam deyildir. Çoxluğuna baxmayaraq, ravilər ya "müdəllis", ya "məchul", ya "zəif", ya da "məcruh"durlar[2]. Bu baxımdan hədis digər dini mətnləri qüvvədən sala, yaxud hansı isə hökmü xüsusiləşdirə, məhdudlaşdıra bilməz. Belə hədislərin Qurani-Kərimin hansı isə ayəsini qüvvədən salması isə qətiyyən mümkün deyildir. Bununla əlaqədar olaraq, "Nəsx probleminə quransayağı münasibət" kitabımızda[3] qeyd etmişik ki, Quran nəsxi[4] rədd edir; Allahın sözlərində dəyişiklik olmaz. Həmçinin iki yüz ayə, o cümlədən "Dində məcburiyyət (zorakılıq) yoxdur. Artıq doğruluq (iman) azğınlıqdan (küfrdən) ayırd edildi. Hər kəs Taqutu (Şeytanı və ya bütləri) inkar edib Allaha iman gətirsə, o,

---

[1] Hədisşünaslara görə, "mürsəl" hədis istinadı tabiiyə gedib çıxan və tabii tərəfindən onu rəvayət etmiş səhabənin adı çəkilmədən birbaşa Peyğəmbərin adından danışılan hədis növüdür. Fəqihlər isə istinadı Peyğəmbərlə əlaqələndirilmədən göstərilmiş hədis növünü "mürsəl" adlandırırlar – ***tərcüməçinin qeydi.***

[2] Eyibli, qüsuru olan

[3] Bax: Taha Cabir əl-Ülvani. Nəsx probleminə quransayağı münasibət. Qahirə: "Məktəbə əş-şüruq əd-düvəliyyə", 2007.

[4] Bir dini mətnin (ayə və hədislər) digər dini mətni qüvvədən salması – ***tərcüməçinin qeydi.***

artıq (qırılmaq bilməyən) ən möhkəm bir ipdən (dəstəkdən) yapışmış olur. Allah (hər şeyi olduğu kimi) eşidəndir, biləndir" və "Əgər rəbbin istəsəydi, yer üzündə olanların hamısı iman gətirərdi. İnsanları iman gətirməyə sənmi məcbur edəcəksən?! (Bu sənin işin deyildir. Sənin vəzifən ancaq islamı təbliğ etməkdir)" ayələri[1] etiqad və ibadət azadlığını təsdiqləyir. Bu ayələr "möhkəm" ayələr olub, hansı isə kənar arqumentlə onların qüvvədən salınması qeyri-mümkündür. Çünki təsdiqləmək və hökm qoymaq Qurana aid məsələdir, – sağlam yanaşma da elə budur. Qurana zidd istənilən hədis, fiqhi hökm bir kənara atılmalıdır. Elə isə insanları hansı isə dini qəbul etməyə, yaxud inanclarını dəyişdirməyə məcbur etmək məqsədilə savaşmaq Quran tərəfindən qeyri-məqbul hesab olunur. Qurandakı cihad, yaxud savaş ayələri o mənaya gəlmir ki, insanları zorla müsəlman etmək üçün cihad lazımdır.

Həmin ayələri diqqətlə nəzərdən keçirdiyimizdə bunu aydın şəkildə görürük. Məkkədə, qəbilə ənənələrinin güclü olduğu cəmiyyətdə Peyğəmbər və möminlər özlərini savaşmaqla müdafiə etməmiş, zorakılığa əl atmamışdılar. Çünki Allah onlara savaşdan əl çəkməyi əmr etmişdi:

"(Ya rəsulum!) O şəxsləri görmürsənmi ki, onlara (vaxtilə): "(Müharibədən) əl çəkin, namaz qılın, zəkat verin!" – deyilmişdi. Onlara cihad etmək vacib olduqda isə, içərilərindən bir qismi Allahdan qorxan kimi və ya daha artıq bir qorxu ilə insanlardan qorxuya düşərək: "Ey rəbbimiz! Cihad etməyi nə üçün bizə vacib etdin, nə olardı ki, bizi yaxın zamana qədər (öz əcəlimiz çatana qədər) yubandıraydın! (Daha bir müddət cihadı bizə vacib buyurmayaydın!)" – dedilər. Onlara söylə: "Dünyanın ləzzəti və faydası azdır, lakin müttəqilər üçün axirət daha xeyirlidir. Sizə (müttəqilərə) xurma çəyirdəyində olan nazik tel qədər belə zülm olunmayacaq!" (ən-Nisa, 77).

Peyğəmbər də ilahi əmri tətbiq edərkən zorakılıqdan qaçmış, yuxarıdakı ayəyə əməl etmişdir:

---

[1] Bax: "əl-Bəqərə" surəsi, 256-cı ayə; "Yunis" surəsi, 99-cu ayə.

“Məhəmməd ibn Əli ibn Həsən ibn Şəqiq bizə danışmışdır ki, atası ona deyibmiş: “Bizə Hüseyn ibn Vafid, ona Əmr ibn Dinar, ona da İkrimə xəbər verib ki, İbn Abbas danışırmış: “Əbdürrəhman ibn Övf və yoldaşları Məkkədə Peyğəmbərin *(Ona Allahın xeyir-duası və salamı olsun!)* yanına gəlib deyirlər: “Ey Allahın elçisi, müşrik ikən güclü-qüvvətli idik. Nə vaxt ki iman gətirdik, alçaldıq.” Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* buyurdu: “Mənə bağışlamaq əmr edilib, savaşmayın!” Allah yerimizi Mədinəyə dəyişdirdiyində bizə savaşmağı əmr etdi, (amma bəziləri müharibədən) əl çəkdilər. Allah da bu ayəni endirdi: “(Ya rəsulum!) O şəxsləri görmürsənmi ki, onlara (vaxtilə): “(Müharibədən) əl çəkin, namaz qılın, zəkat verin!” – deyilmişdi...”[1].

Peyğəmbər özü Əbu Cəhl, Əbu Ləhəb, arvadı və digər müşriklər tərəfindən əzab-əziyyətə məruz qalmışdır. Onu müdafiə etmək istəyənlərə zorakılığı, səhabələrinə də özlərini döyüşməklə müdafiə etməyi qadağan etmişdir. Onlara verdiyi cavab yuxarıdakı ayəyə uyğun idi: “Mənə bağışlamaq əmr edilib”, yəni müharibədən əl çəkmək əmr edilib. Bu, çoxlarının güman etdiyi kimi zəifliklə deyil, ilahi buyruqla əlaqəlidir. Peyğəmbərliklə siyasi rəhbərliyin fərqi də elə bundadır. Peyğəmbərlik vəhyin yolgöstərənliyi ilə hərəkət edir, siyasi rəhbərlik isə qüvvələr balansına söykənən dünyəvi meyarlara uyğun praqmatik addımlar atır. Qəbilə cəmiyyətində fərd zəif deyildir, çünki qəbiləsi və tayfasına güvənir. Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* Məkkənin ən ən güclü qəbiləsinə mənsub idi, Məkkənin əksər qəbilələri və əsilzadə ailələri ilə qohumluğu vardı. Buna baxmayaraq, özünü və səhabələrini zorakı yollarla müdafiə etməmiş, Əbu Talib obasında təcrid olunmaqla barışmışdı. O, bir çox səhabəsinin işgəncəyə məruz qalmasına dözmüş, onlara özlərini himayə məqsədilə Həbəşistana köçməyi əmr etmişdi. Sonralar özü və səhabələri Mədinəyə islam orada yayıldıqdan və oranın ən mühüm qəbilələri ilə əhd bağladıqdan sonra hic-

[1] Əhməd ibn Şüeyb ən-Nəsai. Əl-Müctəba min əs-sünən / araşdırıb çapa hazırlayan: Əbdülfəttah əbu Qüddə. Hələb: “Məktəbə əl-mətbuat əl-islamiyyə”, 1986, VI cild, səh. 2, hədis № 3086.

rət etmişdi. Bu səbəbdən cihad qanunvericiliyi ilə əlaqəli ilk ayə döyüşməyə icazə verir, döyüşməkdən imtina hökmünün başa çatdığını bildirirdi. Artıq müsəlmanlar özlərini müdafiə edə bilərdilər:

"Zülmə məruz qaldıqlarına görə vuruşanlara (kafirlərə qarşı Allah yolunda döyüşməyə) izin verilmişdir. Allah onlara kömək etməyə, əlbəttə, qadirdir!" (əl-Həcc, 39).

Bu ayə müsəlmanlara özlərini müdafiə etməyə ilk dəfə icazə verirdi.

Bundan sonra Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* onunla əhd bağlamış qəbilələrə münasibətdə ayıq və ehtiyatlı olmağı əmr etdi. O, kimin müqavilələrə əməl edib-etmədiyini öyrənmək üçün hər birinin vəziyyətini araşdırmalı idi. Bu qəbilələr bağlanmış müqavilələrdən Peyğəmbərə və möminlərə qarşı tədbir tökmək, onları aldatmaq üçün istifadə etmək istəyirdilər. Allah peyğəmbərinə həmin qəbilələrlə vəziyyətə uyğun şəkildə davranmağı əmr etdi:

"Əgər (əhd bağladığın) bir tayfanın sənə xəyanət edə biləcəyindən qorxsan, (döyüşə başlamazdan əvvəl) onlarla olan əhdini pozduğunu açıq-aydın (mərdi-mərdanə) özlərinə elan et. Çünki Allah xainləri sevməz!" (əl-Ənfal, 58);

"(Ey möminlər) Allahın düşmənini və öz düşməninizi, onlardan başqa sizin bilmədiyiniz, lakin Allahın bildiyi düşmənləri (münafiqləri) qorxutmaq üçün kafirlərə qarşı bacardığınız qədər qüvvə və (cihad üçün bəslənilən) döyüş atları tədarük edin. Allah yolunda nə xərcləsəniz, onun əvəzi artıqlaması ilə ödənilər və sizə heç bir haqsızlıq edilməz!" (əl-Ənfal, 60).

Bu, düşməni, təcavüzü və düşmənçiliyini dəf etmək məqsədi daşımışdır. Eyni zamanda bu surədə sülh istəyənlərin sülh təklifini qəbul etməyi əmr edən ayə də vardır:

"Əgər onlar sülhə (barışığa) meyl etsələr, sən də sülhə meyl et və Allaha bel bağla. Həqiqətən, O (Allah hamınızın sözlərini) eşidəndir, (niyyətlərinizi) biləndir!" (əl-Ənfal, 61).

Başqa bir ayədə Uca Allah peyğəmbərinə buyurur:

"Və onların (bir-birinə düşmən Övs və Xəzrəc qəbilələrindən olan ənsarın) ürəklərini (ülfətlə, dostluqla) birləşdirdi. Əgər sən yer üzündə nə varsa, hamısını xərcləsəydin belə, yenə də onların ürəklərini birləşdirə bilməzdin. Lakin Allah onları birləşdirdi, çünki O, yenilməz qüvvət sahibi, hikmət sahibidir" (əl-Ənfal, 63).

"Ənfal" surəsinin növbəti ayələrində daxili cəbhənin möhkəmləndirilməsinə, Mədinə ətrafındakı müşrik və yəhudi qəbilələrinin mümkün xəyanətlərinə qarşı ehtiyatlı davranmağa çağırış vardır.

"Tövbə" surəsinin ilk ayələrində müşriklərlə bağlanmış müqavilələr barədə xəbərdarlıq edilir[1]. Müqavilə şərtlərini poz-

---

[1] "Allahdan və Onun peyğəmbərindən saziş bağladığımız müşriklərə (onlarla olan əhdlərinin pozulması, əlaqələrin kəsilməsi barədə) bir xəbərdarlıq!
(Ey müşriklər!) Yer üzündə dörd ay sərbəst gəzib dolaşın və bilin ki, siz Allahı aciz qoya bilməzsiniz (Allahın əzabından qaçıb canınızı qurtara bilməzsiniz). Allah kafirləri (dünyada və axirətdə) rüsvay edəcəkdir!
Allahdan və Onun peyğəmbərindən böyük həcc günü (zülhiccə ayında vacib, fərz olan həcc; qurban bayramı və ya Ərəfə günü) insanlara bir bildiriş! Allahın və Onun peyğəmbərinin müşriklərlə heç bir əlaqəsi yoxdur. Əgər (küfrdən və şirkdən) tövbə etsəniz, bu sizin üçün xeyirli olar. Əgər (imandan) üz döndərsəniz, bilin ki, Allahın əzabından qaçıb canınızı qurtara bilməzsiniz. (Ey peyğəmbərim!) Kafir olanları şiddətli bir əzabla müjdələ!
Müqavilə bağlandıqdan sonra sizə qarşı bir naqislik etməmiş (onun şərtlərini pozmamış) və sizin əleyhinizə heç kəsə yardım göstərməmiş müşriklər istisnadır. Onlarla əhdinizə axıra qədər (müddəti bitənədək) vəfa edin. Şübhəsiz ki, Allah müttəqiləri (əhdi nahaq yerə pozmaqdan çəkinənləri) sevər!
Haram aylar (onlara möhlət verilmiş zülhiccə, məhərrəm, səfər və rəbiüləvvəl ayları) çıxınca müşrikləri harada görsəniz, öldürün, yaxalayıb əsir alın, həbs (mühasirə) edin və bütün yollarını – keçidlərini tutun. Lakin əgər tövbə etsələr, namaz qılıb zəkat versələr, onları sərbəst buraxın (işiniz olmasın). Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir!
Əgər (basqına uğrayan) müşriklərdən biri səndən aman istəsə, ona aman ver ki, Allah kəlamını (Quranı) dinləsin. Sonra (islamı qəbul etmədiyi təqdirdə) onu əmin olduğu (müşriklərin yaşadığı) yerə çatdır. Çünki onlar (haqqı) bilməyən bir tayfadır!
Məscidülhəramın yanında (Hüdeybiyyədə) müqavilə bağladığınız kəslər (Bəni–Zəmirə və Kinanə qəbilələri) istisna olmaqla, müşriklərin Allah və Onun Peyğəmbəri yanında necə əhdi ola bilər?! Onlar sizinlə doğru-düzgün davrandıqca (əhdi pozmadıqca) siz də onlarla doğru-düzgün dolanın. Həqiqətən, Allah müttəqiləri (xəyanətdən, əhdi pozmaqdan çəkinənləri) sevər!
Necə ola bilər ki, onlar sizə qalib gəlsələr, nə bir anda, nə də bir əhdə əməl edərlər? Onlar ürəkləri istəmədikləri halda, sözdə sizi razı salmağa çalışarlar. Onların əksəriyyəti (Allaha asi olan, itaətdən çıxan, əhdi pozan) fasiqlərdir!
Onlar (müşriklər və ya onlara yardım edən yəhudilər) Allahın ayələrini ucuz qiymətə

mamış müşriklərə gəlincə, ayələrdə, onlarla olan razılaşmaya riayət çağırışı vardır.

İlk ayədə müqavilə bağlanılmış müşriklərə xəbərdarlıq edilməsinin zəruriliyindən danışılır. Söhbət Peyğəmbərə *(Ona Allahın xeyir-duası və salamı olsun!)* xəyanət etməyi düşünən, bunun üçün fürsət gözləyən, daha sonra andlarını pozub verdikləri əhdi tutmayan, Peyğəmbərə və möminlərin düşmənlərinə kömək edən müşriklərdən gedir. Məhz onlarla bağlanmış müqavilələr ləğv olunurdu, çünki düşmənçiliyə ilk onlar başlamış, xəyanət etmiş, andı və əhdi pozmuş, Peyğəmbər və möminlərin düşmənləri ilə əməkdaşlıq etmişdilər. "Tövbə" surəsinin 4-cü ayəsindən məlum olur ki, müqavilənin ləğv edilməsi bütün müşriklərə şamil deyildir:

"Müqavilə bağlandıqdan sonra sizə qarşı bir naqislik etməmiş (onun şərtlərini pozmamış) və sizin əleyhinizə heç kəsə yardım göstərməmiş müşriklər istisnadır. Onlarla əhdinizə axıra qədər (müddəti bitənədək) vəfa edin. Şübhəsiz ki, Allah müttəqiləri (əhdi nahaq yerə pozmaqdan çəkinənləri) sevər!" (ət-Tövbə, 4).

Müqavilələr dərhal ləğv edilməmiş, Uca Allah müşriklərə dörd ay möhlət vermişdi:

"Ey müşriklər!) Yer üzündə dörd ay sərbəst gəzib dolaşın və bilin ki, siz Allahı aciz qoya bilməzsiniz (Allahın əzabından

---

satdılar, sonra da (insanları) Onun yolundan döndərdilər (islamı qəbul etməyə mane oldular). Həqiqətən, onların gördükləri iş necə də pisdir!
Onlar bir mömin barəsində nə bir anda, nə də bir əhdə əməl edərlər. Onlar (günah etməklə) həddi aşanlardır!
Əgər tövbə etsələr, namaz qılıb zəkat versələr, onlar sizin din qardaşlarınızdır. Biz ayələrimizi anlayıb bilən bir tayfa üçün belə ətraflı izah edirik!
Əgər əhd bağladıqdan sonra andlarını pozsalar və dininizi yamanlayıb təhqir etsələr, (sözlərinin üstündə durmayan) küfr başçıları ilə vuruşun. Onların həqiqətdə andları (əhdləri) yoxdur (onlar üçün heç bir andın, əhdin əhəmiyyəti yoxdur). Bəlkə, (bu yaramaz işlərdən) əl çəkələr!
(Ey möminlər!) Məgər siz andlarınızı (əhdlərini) pozan, Peyğəmbəri (öz yurdundan) çıxardıb qovmaq niyyətində olan, üstəlik sizinlə döyüşə də birinci başlayan bir tayfa ilə vuruşmayacaqsınızmı? Məgər onlardan qorxursunuz? Əgər (həqiqi) möminlərsinizsə, bilin ki, əslində qorxmalı olduğunuz məhz Allahdır!" (ət-Tövbə, 1-13).

qaçıb canınızı qurtara bilməzsiniz). Allah kafirləri (dünyada və axirətdə) rüsvay edəcəkdir!" (ət-Tövbə, 2).

Bu qəbilələrə kifayət qədər vaxt (dörd ay!) verilmişdi ki, tədbirlərini görsünlər. Bu müddət imkan verirdi ki, müşriklər həmin ərazilərdə istədikləri kimi gəzib-dolaşsın, hətta Peyğəmbər və möminlərlə savaşmaq üçün hazırlaşsınlar.

"Tövbə" surəsinin 13-cü ayəsindən sonrakı ayələr həmin müqavilələrin ləğv edilməsi ilə əlaqəlidir. Bundan sonra yəhudilərlə savaşmaq əmr olunur. Təəssüf ki, yəhudilər möminlərə qarşı müşriklərə dəstək vermiş, onlarla əməkdaşlıq etmişdilər. Bəli, yəhudi qəbilələri Məkkə müşriklərinə var-dövlət və silahla kömək etmiş, onlara: "Siz müsəlmanlardan daha düzgün yoldasınız!" – demişdilər.

Allah öz peyğəmbərinə əmr etmişdi ki, paxıllıq üzündən şirk və cahiliyyətin yanında yer alan yəhudilərlə savaşsın. Çünki Həzrət Məhəmməd *(Ona Allahın xeyir-duası və salamı olsun!)* İbrahimin oğlu İshaqın deyil, digər oğlu İsmayılın nəslindən idi. "Tövbə" surəsinin 29-cu ayəsində oxuyuruq:

"Kitab əhlindən Allaha və qiyamət gününə iman gətirməyən, Allahın və peyğəmbərinin haram buyurduqlarını haram bilməyən və haqq dini (islamı) qəbul etməyənlərlə zəlil vəziyyətə düşüb öz əlləri ilə cizyə verincəyə qədər vuruşun" (ət-Tövbə, 29).

Məlum olur ki, savaşmaq etiqad azadlığını qorumaq və qəbilələri müqavilələri və verdikləri sözləri yerinə yetirməyə məcbur etmək məqsədi daşımışdır. Bu səbəbdən "Bəqərə" surəsinin 216-cı ayəsində açıq şəkildə deyilirdi ki, Peyğəmbər *(Ona Allahın xeyir-duası və salamı olsun!)* və möminlərin döyüşmək xoşuna gəlmir:

"(Allahın düşmənlərinə qarşı) döyüş (cihad) xoşunuza gəlmədiyi halda, sizə vacib edildi. Bəzən xoşlamadığınız bir şey sizin üçün xeyirli, bəzən də xoşladığınız bir şey sizin üçün zərərli ola bilər.(Onu) Allah bilir, siz bilməzsiniz" (əl-Bəqərə, 216).

Allah buyurur ki, xoşlamadıqları şey onlar üçün xeyirli ola bilər. Müşrik ərəblər Peyğəmbər və möminlər əleyhinə fitnə-fə-

sad törətmək istədiklərində və müsəlmanların haram aylarda və Məscidülharam ərazisində savaşmaq niyyətində olduqlarını öyrəndiklərində aşağıdakı ayə enmişdi:

"(Ya rəsulum!) Haram olan ayda döyüş haqqında səndən soruşanlara söylə: "O ayda döyüşmək böyük günahdır, lakin Allah yolunu (insanların üzünə) qapamaq, onu inkar etmək, Məscidülharama girməyə mane olmaq və oradakıları kənara çıxarmaq Allah yanında daha böyük günahdır. (Din naminə) fitnə salmaq isə (həmin ayda) vuruşmaqdan daha betərdir!" (Ey möminlər!) Onlar (Məkkə müşrikləri) əgər bacarsalar, sizi dininizdən döndərincəyə qədər sizinlə vuruşmaqda davam edəcəklər. Sizdən hər kəs öz dinindən dönüb kafir olaraq ölərsə, belə kimsələrin bütün əməlləri (vaxtilə gördüyü yaxşı işləri) dünya və axirətdə heçə gedər. Onlar cəhənnəmlikdirlər və orada əbədi qalacaqlar!" (əl-Bəqərə, 217).

Müsəlmanlar təcavüzkar müşrikləri dəf etmək üçün savaşmağa məcbur olmuşdular. O da aydın idi ki, insanlara Məscidülharama girməyə mane olub, müsəlmanlara əvvəlki dinlərinə qayıtsınlar deyə işgəncə verənlər məhz müşrik ərəblərdir. Ayədən məlum olur ki, məhz Məkkə müşrikləri müsəlmanlarla onları dinlərindən döndərincəyə qədər vuruşurmuşlar.

Bütün bunlar göstərir ki, əsas məsələ müharibə deyil, sülhdür. Amma inanc azadlığını qorumaqdan, müşrikləri müqavilələrə əməl edib verdikləri sözü tutmağa məcbur etməkdən başqa çarə qalmadıqda möminlər vuruşmağa məcburdurlar.

Bu baxımdan Quranda cihadın bir neçə səviyyəsi göstərilir: imana və əxlaq qaydalarına, göstərişlərə (qanunlara) əməl etməsi üçün fərdin öz nəfsi ilə mübarizə aparıb onu tərbiyə etməsi (**nəfslə cihad** – ***mücahədə ən-nəfs***); cəhalət və savadsızlığı ləğv etmək üçün **sözlə cihad** – təhsil vermək; insanları doğru yola çıxarmaq üçün **Quranla cihad**[1]; tərəqqi yolu və xalqın tələbatlarının ödənməsi ilə baş verən **iqtisadi cihad**; sapmalara müqavimət göstərməyi, cəmiyyətin gedişini düzəltməyi ifadə

[1] "(Ya rəsulum!) Kafirlərə itaət etmə və onlara qarşı (Quranla) böyük bir cihad et!" (əl-Furqan, 52).

edən **ictimai cihad**; tövhidi, tərbiyə və abadlaşdırmanı, ədaləti, bərabərliyi, yaxşı həyatı təmin etmək üçün çəkilən zəhməti bildirən **mədəni cihad** və s.

## Kütləvi qırğın silahları

***Sual:*** Müsəlmanlar tərəfindən kütləvi qırğın silahlarının düzəldilməsinə din necə baxır?

***Cavab:*** Əvvəlcə, problemi bu cür qoyaq: tövhid təliminin məsələyə baxışı nə cürdür? Fərz edək ki, müsbətdir. Belə olduqda çoxlu sual yaranacaqdır. Deyirik: müharibə ilə əlaqəsi olmayan insanlar, heyvanlar, ətraf mühit, torpaq, hava, su, təbii sərvətlər, həmçinin qocalar, xəstələr, uşaqlar, qadınlar, hamilələr və başqaları vardır. Həmçinin düşmənin hədəf seçiləcək qüvvələri, ədalət kimi ali dəyərlər və s. nəzərə alınmalıdır.

Tövhidin məsələyə münasibətini müəyyənləşdirmək üçün iki yüzdən artıq suala cavab tapmalıyıq. Eyni qaydada – tərbiyə və abadlaşdırma baxımından cavabları müəyyənləşdirməli, axırda, bu trio-sistem prizmasından suallara cavab verməliyik. Bu vaxt tövhid, tərbiyə və abadlaşdırma arasındakı bütünlüyü nəzərə almalıyıq ki, inandırıcı və könlü rahatladacaq ümumi cavab hasil olsun.

Müsəlmanlar sülh yaradıcısı, həyat qurucusu olmalıdırlar. Uca Allah buyurur:

"Ey iman gətirənlər! Peyğəmbər sizi, sizləri dirildəcək bir şeyə (imana, haqqa) dəvət etdiyi zaman Allahın və Onun peyğəmbərinin dəvətini qəbul edin. Bilin ki, Allah insanla onun qəlbi arasına girər (insanın bütün varlığına hakim olar; Allah ürəklərdən keçən hər şeyi bilir, bütün ürəklərin ixtiyarı da Onun əlindədir) və siz axırda Onun hüzuruna cəm ediləcəksiniz!" (əl-Ənfal, 24).

Qurub-yaradanlar, sülhə imza atanlar heç vaxt yer üzündə hərc-mərclik çıxarmaz, abadlığı korlamazlar. Çünki bu, tövhidə, tərbiyə və abadlığa ziddir.

## İctimai aspekt

***Sual:*** Bəşər cəmiyyəti sarsıdıcı sosial böhranla üz-üzədir. Ən mühüm sosial qurum sayılan ailə bəzən mübarizə aparılması mümkün olmayan təhdidlərlə qarşı-qarşıyadır. Məsələn, Qərb cəmiyyətinin mübahisə doğuran abort problemi bir çox səbəbdən digər cəmiyyətlərdə də yayılmağa başlayıb. Həmçinin dünyada geniş yayılmış məişət zorakılığı ailə münasibətlərində sevgi və şəfqəti çıxdaş edir, ailələri ər-arvad arasındakı savaş və mübarizə meydanına çevirir, uşaqları da həyatları boyu onları təqib edən psixoloji travmalara, stressə məruz qoyur.

Boşanmalara gəlincə, qlobal ictimai hadisəyə çevrilmişdir. Boşanmaların ən təhlükəli tərəfi uşaqlarda yaratdığı mənfi təsirdir. Quranın ali məqsədləri getdikcə gərginləşən ictimai problemləri necə həll edə bilər?

***Cavab:*** Quran bizi insana insan olaraq yanaşan dünyagörüşü formalaşdırmağa təşviq edir. Belə təsəvvür qadın və kişini bir bütün olaraq götürür, birini digərinin yarısı hesab edir. Ailənin əmin-amanlığı, rahatlığı, fəallığı, həyatdakı vəzifəsini icra etmə bacarığı belə bütövləşmə sayəsində mümkündür. Müxtəlif mədəniyyətlərdə kişini qadına qarşı qoyan təsəvvürlər yenidən nəzərdən keçirilməlidir. Qadın ilk günahın törədilməsi və Adəmin cənnətdən çıxarılmasına görə məsuliyyət daşımır; o, əyri qabırğadan da yaradılmayıb. Kişi və qadın Allahın varisi və insan olmaq, nəfsi paklamaq, yer üzünü abadlaşdırmaq baxımından bərabərdirlər. Allah onlara yaxşı işlər gördüklərində əməllərini zay etməmək barədə söz vermişdir. Nə dünyada, nə axirətdə onlara qarşı ayrı-seçkilik edilməyəcəkdir. Belə yanaşma sayəsində evlilik ortaq vəzifə halına gələcəkdir. Bəşəri vəzifələrə uyğun olaraq rolların bölüşdürülməsi kişi və qadının bir bütün olması təsəvvürünə təsir göstərməyəcək, əksinə, onu

möhkəmlədəcəkdir. Bu səbəbdən evlilik təkcə ər-arvad deyil, həm də cəmiyyət və xalq səviyyəsində missiyaya, vəzifəyə çevrilir. Axı ailə cəmiyyətin məhək daşıdır. Elə isə cəmiyyət, xalq və dövlət ailə institutunu qorumaq və dəstəkləmək üçün səylərini birləşdirməlidir.

Qurani-Kərimdə preventiv səciyyə daşıyan ehtiyat tədbirlərindən danışılır. Məqsəd ailəni qorumaq, dağılmamağını təmin etməkdir. Ayıb yerlərin örtülməsi, açıq-saçıqlığın qadağan edilməsi, kişi və qadınların bir-birinə baxmağı və qeyri-münasib şəkildə qaynayıb-qarışmağının icazəli olmamağı, bioloji instinktləri oyadan, insanı instinktiv-bioloji səviyyəyə düşürən, ailəyə mənfi təsir göstərən istənilən davranış və hərəkətdən uzaq olma – bütün bunlar ailəni qorumaq, Quran dünyagörüşünü mühafizə etmək, yaddaşlarda canlı tutmaq üçündür. Quranın "Nur" və digər surələrində ailənin qurulması və qorunması, möhkəmləndirilməsi haqqında danışılır və bu kontekstdə nəfsin tərbiyəsi, fiziki hərəkətlərə diqqətin yetirilməsi, ailədaxili xüsusi halların aşkara çıxarılmaması, evlərin qorunması mövzularına diqqət göstərilir. Çünki müəyyən səbəblərdən bu kimi məsələlərə etina göstərmir, yaxud onları əhəmiyyətsiz hesab edirik.

Bütün bunlara görə Qurani-Kərim kişi və qadınların vicdanını "möhkəm əhd-peyman" (***misaqi-qəliz***) adlandırılan münasibət formasına hörmət göstərmək üçün hazırlayır. "Bəqərə" surəsindəki (221-240-cı ayələr) Quran hökmlərini oxuduğumuzda görürük ki, "hədd" sözü əsasən ailə sistemi kontekstində işlədilir. Ümumiyyətlə, bu söz Quranda on dörd yerdə işlədilmişdir. On iki yerdə isə ailə hökmləri ilə əlaqəlidir. Allah yaratdığı insana yaxşı bələddir. Bəzən evlilikdə kişi, yaxud qadın uğurlu seçim edə bilmir. Nəticədə ailə sakitlik, xatircəmlik, sevgi və şəfqətdən uzaq qalır. Ailələr bu deyilənlərdən məhrum edilməməlidir. Əks halda, ailənin təşəkkül tapması ilə əlaqəli ali məqsədlər gerçəkləşməyəcək ki, bu da digər dəyərlərə təsirsiz ötüşməyəcəkdir.

Ailənin qurulması və qorunması, Quranın məqsədləri əsasında nəzərdən keçirilməsi problemi magistr və doktorantura səviyyəli tədqiqatlarda diqqətlə və hərtərəfli şəkildə öyrənilməlidir. Belə olduqda ailə münasibətlərində Quranın ali məqsədlərini aktiv hala gətirmək mümkün olacaqdır.

Ailə Quranda qurulma prosesinin hər iki cinsin həyat yoldaşı barədə fikirləşməyə başlamasından etibarən izlənildiyi qurumdur. Hətta Quran məsələni axirətə də daşıyır. Belə ki axirətdə əməlisaleh insanlar və həyat yoldaşları haqqında danışılır:

"Onlar (mömin kişilər) və zövcələri kölgəliklərdə (yumşaq) taxtlara söykənmişlər" (Yasin, 56).

Digər tərəfdən isə dünyada ikən ailə qurumuna düzgün münasibət bəsləməmiş şəxslərin vəziyyəti təsvir olunur. Quran axirətdə, həm də ailəyə görə məsuliyyət daşımaqdan söz açır:

"Ey iman gətirənlər! Özünüzü və əhli-əyalınızı elə bir oddan qoruyun ki, onun yanacağı insanlar və daşlar (daşdan düzəlmiş bütlər), xidmətçiləri isə Allahın onlara verdiyi əmrlərə asi olmayan, buyurduqlarını yerinə yetirən daş qəlbli (heç kəsə zərrəcə rəhm etməyən) və çox sərt təbiətli mələklərdir (zəbanilərdir)" (ət-Təhrim, 6).

Peyğəmbər də *(Ona Allahın xeyir-duası və salamı olsun!)* aşağıdakı hədisdə məsələyə aydınlıq gətirmişdir:

"Şəxsə dolandırdığı ailəsinə etinasız yanaşmağı günah olaraq bəsdir"[1].

Beləliklə, müasir cəmiyyətlərdə geniş yayılmış mənfi hallara (məişət zorakılığı, Quranda əhəmiyyətli yerə sahib dəyərlərin: sevgi, şəfqət, xatircəmlik, nikah qohumluğu, soy-kökün sərfnəzər edilməsi) münasibətdə Qurani-Kərim və Peyğəmbərin mövqeyi aydın olur.

Ailə institutunu tövhidlə əlaqələndirmək, fərdləri, cəmiyyətləri, xalqları tərbiyə etmək və abadlaşdırma aparmaq kontekstində ali "məqsədlər"in işarə etdiyi ayrı-ayrı məsələlərlə tanış

[1] Əbu Davud əs-Sicistani Süleyman ibn əl-Əş`əs. Sünən Əbu Davud / araşdırıb çapa hazırlayan: Məhəmməd Mühyiddin Əbdülhəmid. Beyrut: "Dar əl-fikir", (çap ili göstərilməyib), I cild, səh. 529, hədis № 1692.

olduqda görürük ki, başlıca məqsəd insan oğlunun öz rolunu Allahın müəyyən etdiyi şəkildə icra etməsidir:

"(Ya rəsulum!) Sənin rəbbin mələklərə: "Mən yer üzündə bir xəlifə (canişin) yaradacağam", – dedikdə (mələklər): "Biz Sənə şükür etdiyimiz, şəninə təriflər dediyimiz və Səni müqəddəs tutduğumuz halda, Sən orada (yer üzündə) fəsad törədəcək və qan tökəcək bir kəsmi yaratmaq istəyirsən?" – söylədilər. (Allah onlara:) "Mən bildiyim şeyi siz bilmirsiniz!" – buyurdu" (əl-Bəqərə, 30).

Yer üzünü abadlaşdırmaq və varislik[1] vəzifəsini icra etmək insan həyatından asılıdır. İnsana və başqalarına zərər vuran istənilən şey ya varislik vəzifəsini ləğv edir, ya da abadlaşdırma bacarığını zəiflədir. İnsan və yer üzü (dünya, kainat) Uca Allahın mülkiyyətidir.

Elə isə öz bədəninə istədiyini edə biləcəyini düşünən insan səhvə yol verir. Çünki bu cür düşünməklə bizə aid olmayan şeyə sahib olduğumuzu iddia edir, həqiqi mülk sahibinin – Allahın haqqını heçə sayırıq. Odur ki islamda intihar, başqasını nahaq yerə öldürmək, insanı ölümə sürükləmək haramdır. İnsanın, yaxud hansı isə üzvünün qorunması Şəriətin "canın mühafizə edilməsi" məqsədinə daxildir. Varislik və abadlaşdırma vəzifəsinin həyata keçirilməsi canın qorunmasından asılıdır. Can insana əmanətdir, onu təhlükəyə məruz qoya bilməz. Bu, həm embriona, həm də artıq dünyaya gəlmiş insana aiddir.

İlk dövr fəqihləri, o cümlədən Qəzali həm təbabətin inkişafından əvvəl, həm də dövrün bilik limiti çərçivəsində bildirirdilər ki, hamiləlik dörd ayı keçdikdə abort etdirmək olmaz. Çünki o dövrün biliklərinə görə ancaq dörd aydan sonra embrion canlıya çevrilirdi. İslamın müdrikliyindəndir ki, təfsilata girməmiş, hər dövrün bilik limitinə uyğun hökmlərin çıxarılmasını təmin etmişdir. Əgər müasir elm həyatın kişi spermatozoidinin yumurtalıq hüceyrəsinə girməsi ilə başlandığını deyirsə, onda bu mərhələdəki törəmənin (ziqot) yaşamaq hüququna ehtiram göstərmək lazımdır.

---

[1] Allahın insanı yer üzünün varisi olaraq yaratması nəzərdə tutulur – ***tərcüməçinin qeydi.***

Bu yerdə, kök hüceyrələr ətrafında gedən mübahisələrə toxunaq. Belə hüceyrələrdən müalicə məqsədilə istifadə mümkündürmü?

Suala cavab vermək üçün həkimlər, tibb mütəxəssisləri sosioloqlarla, hüquqçular və din alimləri ilə görüşməli, problemin müxtəlif tərəflərini müzakirə etməlidirlər. Belə olmazsa, bu cür məsələlərdə cəsarətli hərəkət etmək "vasitəbazlıq" adlandırılan şeyə aparıb çıxaracaq, yəni insan həyatına vasitə gözü ilə baxılacaqdır.

Belə məsələləri həll etmək abadlaşdırma, varislik, insan növünün davamlılığı kimi hüquqi "məqsədlər"i nəzərə alan ixtisaslı qurumlara tapşırılmalı, Quranın məqsədlərinə söykənən akademik görüşlər əsas götürülməlidir.

Bu məqsəd digər mühüm məqsədə qapı açır. Söhbət söy-kökün qorunmasından gedir.

İnsan embrionu spermatozoid və analıq hüceyrəsinin birləşməsi ilə yaranır. Bunda kişi və qadın iştirak edir. Dövlət və qanundan qabaq məhz onlar embrionun qorunmasında birbaşa məsuliyyət daşıyırlar. Ata təkbaşına məsuliyyət daşıyıb çətinliyə düşməsin deyə anaya bu işdə ortaq olur. Mümkündür ki, ana bu yükü çəkə bilməsin, odur ki tərəfləri bir-birinə bağlayan bağa ehtiyac vardır. Əgər ana bətni embrionun "yuva"sı rolunu oynayırsa, ata hamiləlikdən doğuşadək anaya görə məsuliyyət daşımalı, onu və onun qanı ilə qidalanan embrionun güzəranlığını təmin etməlidir. Bu baxımdan nikah müqəddəs bağ və məsuliyyət yükləyən müqavilə kimi qarşımıza çıxır. Məhz müqəddəs nikah müqaviləsi ilə tərəflər sonradan tam insana çevriləcək embrionun hüquqlarının qorunmasında məsuliyyət daşıyırlar.

Qanunvericiliyin kompleks şəkildə nəzərdən keçirilməsi zəruri sayılan məqsədləri və məsələləri vardır. Bir qadın düşünsə ki, bədən onun bədənidir, embrionu qəbul, yaxud rədd etmək onun seçimidir, özünü Allaha ortaq tutar. Həmçinin kişi seçdiyi qadınla münasibətinə ötəri ehtirasın doğurduğu görüş gözü ilə baxmamalı, məsuliyyətli olmalıdır. Əks halda, Allaha

şərik qoşmuş olar. Orqanizmi, instinktləri və hisslərində ixtiyar sahibi olduğunu düşünən şəxs özünü Allah hesab edən, davranışlarında ilahi göstərişləri nəzərə almayan kimsədir. Belə düşüncə və davranış imana, tövhidə ziddir. Quran metodologiyası abort kimi problemlərin "mənbəyinin qurudulması"na hesablanıb. Məqsəd gələcəkdə problemin meydana çıxmasının qarşısını almaqdır.

Dövrümüzdə insanlar bəzi təzahürləri ictimai hadisəyə, gündəlik praktikanın bir hissəsinə çevrildikdən sonra həll barəsində düşünür, bu halların səbəblərinə köklənmirlər. Halbuki məntiq hadisələri doğuran səbəbləri aradan qaldırmağı, motivləri öyrənməyi zəruri edir. Bu səbəbdən Quranın "ən-Nur" surəsində cəmiyyətdə əxlaqsızlıq və zinanın yayılmasına aparıb çıxaran "mənbə" və "kök"lərlə məşğul olmaq barədə danışılır. Belə əxlaqsızlıq xudbin tərəflər arasında baş verir; bu insanları cinsi ehtiyacı ödəməkdən, qısa müddətliyinə həzz almaqdan, şəhvətdən başqa heç nə maraqlandırmır; onlar cinsi əlaqədən irəli gələn hallara görə məsuliyyət daşımaq barədə düşünmürlər. Amma öz insanlığına hörmət edən, həyatın mənası və məsuliyyətini yaxşı bilən şəxslər belə məsələlərdə cavabdehlik nümayiş etdirərlər.

Boşanma sözügedən əlaqənin (evliliyin – ***mütərcim***) humanistcəsinə kəsilməsi olsa da, nikahdan irəli gələn hökmləri ləğv etmir. Yəni, boşanma baş versə də, evli iki şəxsin izdivacından uşağın dünyaya gəlməsi onların münasibətlərinin bütünlükdə kəsilməsinə imkan vermir. Nikahın doğurduğu digər münasibətlərə də hörmətlə yanaşmaq lazımdır. Tərəflər nikah əlaqəsinin humanist təbiətinə hörmət edib, Allahın hədlərini tanısalar, nikah ondan irəli gələn digər münasibətlərə də şamil olunur. Nikah qüvvədən düşdükdə tərəflər arasında xüsusi birgəlik (cinsi əlaqə...) dayandırılır. Bu baxımdan Quran xanımlarını xətər yetirmək, yaxud var-dövlət mənimsəmək, qeyri-qanuni var-dövlət əldə etmək məqsədilə saxlayan, bununla da, nikahı və ondan irəli gələn xoş münasibətləri əlaqədar hər kəsə zərər

vuracaq dağıdıcı münasibətlərlə əvəzləyən şəxslərə xəbərdarlıq edir. Bu mövzuda konstitusional qayda olacaq ayədə deyilir:

"Kəbin haqlarını təyin etmiş olduğunuz qadınları yaxınlıq etmədən əvvəl boşayarsınızsa, təyin olunmuş kəbin haqqının yarısını onlara verməlisiniz! Bununla belə, onlar (qadınlar) bunu (ərlərinə), yaxud əlində nikah müqaviləsi olanlar (ərlər) kəbin haqqının hamısını qadınlara bağışlaya bilərlər. (Ey kişilər!) Sizin bağışlamağınız (güzəştə getməyiniz) müttəqiliyə daha yaxındır. Bir-birinizə yaxşılıq etməyi unutmayın! Şübhəsiz ki, Allah sizin etdiklərinizi görəndir" (əl-Bəqərə, 237).

Tərəflərin yaxşı əməllərini, nikahın doğurduğu münasibəti unutmaq olmaz. Əksinə, tərəflər arasında münasibətlərin kəsilməsinin doğurduğu mənfi nəticələri mümkün qədər bloklamaq lazımdır. Deməli, boşanmadan irəli gələn mənfi halları məhdudlaşdırmaq, münasibətlərdə balansı qoruyub saxlamaq çox mühümdür.

### İqtisadi aspekt

***Sual:*** Hazırkı iqtisadi böhranı Quranın ali məqsədləri baxımından necə qiymətləndirmək mümkündür?

***Cavab:*** Quranda bildirilir ki, mülkiyyət olmaq baxımından bütün var-dövlət Allahındır, insan isə bu var-dövlətdə varis edilib:

"(Ey insanlar!) Allaha və peyğəmbərinə iman gətirin. Sizi varis etdiyi maldan (Onun yolunda) xərcləyin. Sizdən iman gətirib (mal-dövlətini Allah yolunda) sərf edənləri böyük bir mükafat gözləyir!" (əl-Hədid, 7).

Dünyadakı xoş və təmiz olan hər şey Allahın mülkiyyətidir. Var-dövlət, xoş və təmiz olan şeylər insanın həqiqi mülkiyyəti olmayıb, istifadə edilmək baxımından mövcuddur. Elə isə həqiqi sahibkarın – Allahın istehsal, istehlak və bölüşdürmə üsulları və vasitələrində insanlara yol göstərmək haqqı vardır.

Allahın bu mövzu ilə əlaqəli göstərişləri nəzərə alınmalıdır. Qurani-Kərimə görə, Allahın insan oğluna həmin xoş və gözəl

nemətlərin qarşılıqlı razılıq əsasında bölüşdürülməsini tapşırması özü bir nemətdir. İnsanlar bunu nəzərə almalı, deyilənlərə əməl etməlidirlər.

Nəzərə alınmalı ikinci məsələ budur ki, Uca və Pak Allah bütün insanları sərvətləri müştərək istifadə edəcək vahid ailə sayır. Allah hər şeyi insan üçün, insanın mənafeyi üçün yaratmışdır. Hər kəsin Allahın yaratdığı sərvətlərdə payı vardır. Bəşər ailəsinin üzvü olaraq kimisə Allahın yaratdığı şeylərdən məhrum etmək yolverilməzdir. Hər kəsin öz haqqına sahib olmağının Quran tərəfindən göstərilmiş yolları, eləcə də bəşəri təcrübə və praktika, sistemlər mövcuddur. Bu sahədə özünü göstərən çatışmazlıqlar insan oğlunun istehsal, istehlak və bölüşdürmədəki yarıtmazlığından irəli gəlir.

### Pul

İnsan oğlu əmtəə və nemətlərin mübadiləsi üçün pulu kəşf etmiş, din də bu məsələdə ona öz təlimatları ilə dəstək vermişdir. Məhsulun məhsulla dəyişdirilməsi dövründən sonra bəşəriyyət pul kimi qızıl və gümüşdən istifadə etməyə başlamışdır. Düzdür, dünyanın müxtəlif yerlərində mübadilə alış-verişi davam etdiyi halda, əsasən böyük şəhərlərdə qızıl və gümüş pullardan istifadə olunurdu. Bu, ticarəti, mənafe və nemətlərin bölüşdürülməsini asanlaşdırmaq, hər xalqın, qəbilənin, insan qrupunun ehtiyaclarını ödəmək məqsədi daşımışdır.

Pul ideyasından izafi dəyər ideyası yaranmışdır. Belə ki şəxs başqalarının ehtiyac duyduğu şeyləri satıb pul əldə edir. Daha sonra özünün ehtiyac duyduğu şeyləri aldıqda yanında satdığının dəyərindən artıq pul (izafi pul) qalır. İzafi dəyər izafi pul dəyərinə istehsalatda insan əməyi və istehsal vasitələrinin roluna uyğun gələn rol yükləyir. Bununla da, izafi dəyər faizə zəmin hazırlayacaq əmtəəyə çevrilir. Faiz verən şəxs zəhmət çəkmədən, riskə getmədən özündə toplanmış izafi dəyəri borc verir və buna görə qat-qat faiz alır. Şərait və tələbata uyğun olaraq, faizə tələbat azalıb-çoxala bilir. Nəticədə izafi dəyəri faizlə borca verməyi bacaran, ehtiyac sahiblərinin vəziyyətindən

sui-istifadə edən sələmçilər meydana çıxmışdır. Halbuki bütün İbrahim dinləri faizi haram saymış, Allah sələmçilərə savaş açmışdır. Lakin riskə getmədən asan yolla pul qazanmaq hərisliyi sələmçiliyin möhkəmlənməsinə səbəb olmuşdur.

Müəyyən proseslərdən sonra Qərb insanı faizə söykənən, pulu və izafi dəyəri xüsusi üsullarla sərmayə yatıran banklar ideyasını inkişaf etdirmişdir. Bu banklar yarandıqdan sonra var-dövlət və sərvət bir tərəfdə, yoxsulluq və ehtiyac isə digər tərəfdə toplanmışdır. Sənaye inqilabı baş verdikdə böyük şirkətlər yaranmış, insanlar kapitalistlərə və işçilərə bölünmüşdülər. Həmin dövrdə Amerika və Avropanı sarsıtmış iqtisadi böhranlar baş vermişdi. Karl Marks özünün kapital nəzəriyyəsini işləyib hazırlamış, fərdi mülkiyyəti kollektiv mülkiyyətlə əvəzləmə cəhd göstərmişdi. Amma nə Marksın təklifləri, nə Engelsin ideyaları, nə də Hegelin fəlsəfəsi izafi dəyər problemini həll edə bilməyib. Çünki problem fərdlərin, yaxud kapitalistlərin mülkiyyəti problemi deyildir. Nə də ki problemi fərdi mülkiyyəti kollektiv mülkiyyətə çevirməklə həll etmək mümkündür. Problemi aradan qaldırmaq üçün izafi dəyər problemini həll etmək, faizin, faiz müqavilələrinin qarşısını almaq, bəşəriyyəti istehsal, bölgü və istehlakda faizin mənfi nəticələrindən qorumaq, pula olan ehtiyacı ödəmək üçün faizə əsaslanmayan sistem qurmaq lazımdır.

Faiz əməliyyatları faizin mövqeyini möhkəmlədən istehsal, istehlak və bölgü münasibətləri və müqavilələri şəbəkəsinin yaranmasına səbəb olub. Buraya kredit və borcların satılması, fərdin sahib olmadığı şeyi satması, birja, sekyuritizasiya və s. daxildir. Nəticədə xalqların var-dövləti varlılar və bankların əlində toplanmış, cəmiyyətin digər üzvləri Allahın onlar üçün yaratdığı sərvətlərdən istifadə etməkdən məhrum buraxılmışlar. Faiz əməliyyatları, izafi dəyərin istismar edilməsi, pul yığmaq ehtirası, Allahın var-dövlətlə əlaqəsinə etinasız qalma – bütün bunlar tövhidə ziddir.

Faiz sələm verən tərəfin (fərdlər, banklar, qurumlar) pulu ilahiləşdirmək, Allah və insan oğlunun var-dövlətin həqiqi

sahibi olmağı ideyasını heçə saymaq istəyinin göstəricisidir. Həmçinin sələmçilər zəif və kimsəsizlərin də var-dövlətdə pay sahibi olmaları prinsipini heçə sayırlar. Allah Təala buyurur:

"Mallarında da dilənçinin və yoxsulun haqqı (payı) var" (əz-Zariyat, 19).

Söhbət sədəqə, yaxud ianədən deyil, haqdan gedir. Tövhid başlanğıca qayıtmağı, var-dövlətin Allahın və insanların olduğunu təsdiqləməyi zəruri edir. İnsanlar var-dövlət məsələsində istədikləri kimi hərəkət edə bilməzlər. Həmçinin faiz əməliyyatları tərbiyəyə zidd olub, Allahın dininə görə qeyri-məqbul əxlaq, yaxud davranış forması meydana gətirir. Bütün səmavi kitablarda göstərilir ki, varlıların vəzifəsi yoxsul və möhtacların haqqını verməkdir.

Dinlər zənginlərin var-dövlətindən möhtaclara verilən hissəni zəkat, yaxud haqq adlandırır. Quran tövhid, tərbiyə və abadlaşdırma kimi ali məqsədlərinə uyğun olaraq, ədalətli iqtisadi sistem təqdim edir. Bu, nə kapitalizm, nə də sosializmdir.

Bu böhran zamanı[1] dünya iqtisadiyyatı təxminən 12 trilyon dollar itirmişdir. Əslində bu pul yoxa çıxmayıb, əksinə, bir cibdən çıxıb digər cibə daxil olub, maliyyə böhranlarını idarə etməyi bacaranların, belə böhranlara zəmin hazırlayanların əlinə keçib. Nəticədə yoxsulların, orta təbəqənin vəziyyəti daha da pisləşib, istismarçıların isə varı artıb. Zərər çəkənlərə deyil, banklara, varlılara, böyük kapitalistlərə kömək məqsədilə tədbirlər görülüb. Bu da öz növbəsində faizi, faiz sistemini qoruyur, əsl zərər çəkənlərə isə xeyir toxundurmur.

Bəşəriyyət Quranın ali dəyərlər sistemini düzgün qiymətləndirərsə, faizdən xilas ola, faizə əsaslanan iqtisadi sistemləri yenidən nəzərdən keçirə, dünyanı faizdən qoruma yollarını müəyyənləşdirə bilər. Əgər bu "məqsədlər"in ayrı-ayrı aspektlərini yaxşı başa düşən ixtisaslı komissiyalar təşkil olunarsa, iqtisadçılar, sosioloq və siyasətşünaslar görəcəklər ki, ali məqsəd-

---

[1] Söhbətin hansı böhrandan getdiyini müəyyənləşdirə bilmədik. Görünür, kitab çapa hazırlanarkən müəyyən hissələr texniki səbəblərdən mətnə daxil edilməyib – ***tərcüməçinin qeydi.***

lərə əsaslanan quransayağı həll bizi problemdən xilas edə bilər. Bir çox hökumətin həqiqi zərər sahiblərinə deyil, banklara, sələmçilərə etdiyi maliyyə yardımı isə problemi əsla həll edə bilməz.

## Son söz

Quranın ali məqsədləri müsəlman hüquqşünaslarını "natamam yanaşma" müstəvisindən "bütöv baxış" və "böyük fiqh" müstəvisinə daşıyacaqdır. Nəticədə onlar yenilikləri başa düşməyə, bəşəri mənafeləri gerçəkləşdirməyə, xalqları əzən zərərləri aradan qaldırmağa imkan verəcək dinamik və geniş baxış bucağına sahib olacaqlar. Belə baxış bucağı Quran şəriətinin xüsusiyyətlərini üzə çıxarmağa, azlıq və çoxluqların problemləri ilə məşğul olan, Quran və Sünnəyə əsaslanan fiqh sahəsi yaratmağa imkan verəcəkdir.

Təqdim etdiyimiz tezis ilk baxışdan yeni görünsə də, Həzrət Əbubəkr, Həzrət Ömər, Həzrət Əli və Həzrət Aişə kimi öndər səhabələrin sözləri və təcrübələrində mövcud olmuşdur. Müvəffəqiyyət Allahdandır!

# Mündəricat

Ön söz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 3
Quranın ali məqsədləri və trio-sistem: tövhid, tərbiyə və abadlaşdırma. . . . . . . . . . . . . . . . . . . . . . . 10
Metodların yenilənməsi zərurəti . . . . . . . . . . . . . . . . . . . . 11
Başlıca məqsədlər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 13
Aktivləşdirmə vasitələri və icra mexanizmləri . . . . . . . . . . . . 14
Ənənəvi fiqhə yenidən baxış: tətbiqi nümunələr . . . . . . . . . . . 15
*Birinci nümunə:* Yer üzünün təsnifatı. . . . . . . . . . . . . . . . . 15
*İkinci nümunə:* Sülh və müharibə baxımından bəşəri münasibətlər . . . . . . . . . . . . . . . . . . . . . . . . 18
Siyasi aspekt . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 19
Kütləvi qırğın silahları . . . . . . . . . . . . . . . . . . . . . . . . 29
İctimai aspekt. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 30
İqtisadi aspekt . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 36
Pul . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 37
Son söz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 40



*Taha Cabir əl-Ülvani*

Taha Cabir əl-Ülvani 1935-ci ildə İraqda anadan olub.
İbtidai və orta təhsilini İraqda alıb.
1959-cu ildə Əzhəri-Şərifin Şəriət və fiqh fakültəsini bitirib.
1968-ci ildə bu elm ocağının sözügedən fakültəsinin magistratura pilləsində təhsilini başa vurub.
1973-cü ildə Əzhəri-Şərifin doktoranturasını başa vuraraq, "İslam fiqhinin əsasları" (Üsuli-fiqh) ixtisası üzrə doktorluq elmi dərəcəsini alıb.
10 il (1975-1985) ərzində Ər-Riyaddakı İmam Məhəmməd ibn Səud Universitetində İslam hüququ (fiqh) və İslam hüququ əsasları (üsuli-fiqh) ixtisaslarından dərs deyib.
Taha Cabir əl-Ülvani 1981-ci ildə ABŞ-da təsis edilmiş Beynəlxalq İslam Fikri İnstitutunun banilərindən sayılır. Hal-hazırda həmin institutun direktoru və Katiblər Şurasının sədri, Məkkədəki İslam Dünyası Birliyi Təsisat Komitəsinin və Ciddə Beynəlxalq İslam Fiqhi Akademiyasının üzvü, Şimali Amerika Fiqh Şurasının sədri, ABŞ-da fəaliyyət göstərən Kordova Universitetinin rektoru, Ali İslam və İctimai Elmlər Məktəbinin direktorudur.
Bir sıra nəzəri tədqiqatların müəllifi olan alim fiqh və "üsuli-fiqh" sahəsində görkəmli mütəxəssisdir.

Beynəlxalq İslam
Fikri İnstitutu

9 789952 844597